# NOVRUZ BAYRAMINIZ MÜBARƏK!


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN ORQANI

№ 61 (8940) BAZAR, 20 mart 2022-ci il
Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur
www.azerbaijan-news.az






# Azərbaycanı birləşdirən bayram

## Novruz tonqalı zəfər rəmzinə çevrilir

**Xalqımız Novruz bayramını qeyd edir. Heç bir tarixi hadisə ilə bağlı olmayan bu bayram qədim əcdadlarımızın mifik dünyagörüşlərinə əsasən baharın gəlişini, təbiətin canlanmasını, torpağın oyanmasını özündə ehtiva edən el şənliyidir. Novruz bayramı yeni həyat mənasını daşımaqla baharın - yeni ilin gəlişi kimi qeyd olunur.**

### Xalqımızın milli-mənəvi dəyərlərinin təcəssümü

Varlığın yenidən canlanmasını müjdələyən Novruz bayramı sadəcə şadlıq, sevinc, səadət bayramı olmamış, tariximizin ən çətin anlarında insanların ürəyində özünə yer etmiş, həyatına daxil olmuş, işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusunu yaşatmışdır. Novruz insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər üzərində formalaşmışdı. Təbiətlə bağlı olan bu gözəl bayramda həm də ulu əcdadlarımızın xatirəsinə dərin ehtiram ifadə olunur. Xalqımızın tarixi yaddaşından süzülüb gələn ənənələr keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan bu bahar bayramında bütöv bir şəkildə yaşayır.

Onu da qeyd edək ki, hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişaf etdirilməsində tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Bu baxımdan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hələ sovet hakimiyyəti illərindəki fəaliyyəti diqqəti xüsusilə cəlb edir. Çünki məhz Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə xalqımız sovet ideologiyasının unutdurmağa cəhd göstərdiyi mənəvi irsinin zənginliklərinə yiyələnmiş, milli dəyərlərinə daha hörmət və ehtiramla yanaşmağa başlamışdır. Ulu Öndərin başlatdığı ümumi mədəni hərəkatın tərkib hissəsi kimi Novruz bayramı ötən əsrin 70-80-ci illərində əvvəlki dövrlərlə müqayisədə daha kütləvi qeyd olunmağa başlamışdı.

Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra müxtəlif qadağalar aradan qalxdı və xalqımız müqəddəs adət və ənənələrin, milli duyğuların, xeyirxahlığın, insana, təbiətə məhəbbətin tərənnümçüsü olan Novruz bayramını könül rahatlığı ilə, adına layiq şəkildə qeyd etməyə başladı. Beləcə, tariximizin yaddaşından süzülüb gələn Novruz bayramı bir çox çətinliklərdən ötərək bugünümüzə qovuşdu, özünün layiqli yerini tutdu. Ümummilli Lider Heydər Əliyev Novruz bayramını Azərbaycanın dövlət müstəqilliyinin xalqa verdiyi bəhrələrdən biri kimi səciyyələndirirdi.

### Mehriban Əliyevanın qlobal Novruz töhfəsi

Ulu Öndərin əsasını qoyduğu ənənələri davam etdirən Prezident İlham Əliyev xalqımızın milli dəyərlərinin qorunmasına, yaşadılmasına və təbliğinə xüsusi diqqətlə yanaşır. Dövlət başçısı hər il Novruz bayramı münasibətilə xalqa təbrik ünvanlayır. “Azərbaycan torpağında qədim köklərə malik Novruz bayramı xalqımızın mədəni sərvətlər xəzinəsində layiqli yer tutur. Ulu əcdadımızın zəngin daxili aləminin və nikbin dünyagörüşünün dolğun təcəssümü olan bu el bayramı yüzillərdən bəri varlığımızın ən dərin qatlarına nüfuz etmiş, milli özünüdərkin təşəkkülünə töhfələr vermiş, ali dəyərlərin daşıyıcısına çevrilərək insanlarımızı vahid mənəviyyat ətrafında daim bir-birinə yaxınlaşdırmışdır.Tariximizin taleyüklü anlarında gələcəyə inamımızı biz, eyni zamanda, Bahar bayramının bəxş etdiyi mənəvi güc sayəsində qoruyub saxlamışıq. Qloballaşma dalğasının vüsətli dövründə Novruz ənənələrinin müqəddəs ərmağan kimi uca tutulması və bütün rəngarəngliyi ilə yaşadılması çoxəsrlik mədəni irsimizə ehtiramımızın ifadəsidir”, - deyə Prezident İlham Əliyev Novruz bayramı münasibətilə xalqımıza təbrikində bildirib.

Ardı 3-cü səh.

# Milli birliyə və həmrəyliyə çağırış

## Ulu Öndər Heydər Əliyev Novruz bayramını milli-mənəvi dəyərlərimizin ana sütunu kimi əbədiləşdirmişdir

Novruz çox qədim zamanlardan Şərq dünyasında həm yazın gəlişi, yeni mövsümün başlanması, əkinçilik və maldarlıq mədəniyyəti ilə bağlı, həm də xalqın mənəvi-əxlaqi dəyərlərini, humanizm və həmrəylik kimi bəşəri duyğuları qabarıq şəkildə göstərən ayin və etiqadlar sistemidir.

Xalqımızın keçib gəldiyi tarixi yol, minilliklərlə formalaşmış bir çox ənənələrimiz bu bayramın ruhunda yaşayır. Novruzda qədimliyimizin bütün çalarları əksini tapıb. Xalqımızın bir çox özünəməxsusluqları bu bayramda axtarılıb. Tarixi keçmişimizlə bağlı xeyli suallara bu bayramın adət-ənənələrində, dəyişməz atributlarında cavablar var. Ona görə də Azərbaycan xalqı Novruz bayramını, hətta qadağan olunduğu vaxtlarda belə onu müxtəlif formalarda keçirib. Novruz kimi mənəvi dəyərlərimizin gücü ilə xalqın milli yaddaşı itməyib. Təsirlər qarşısında aşınması mümkün olmayıb. Əksinə, daha da güclənib, möhkəmlənib, nəsillərdən-nəsillərə ötürülüb. Elmi cəhətdən öyrənilib. Bu bayrama aid folklor nümunələri sənədləşdirilib. Novruzun bir çox simvolları mədəniyyət və incəsənətimizin qiymətli incilərinə çevrilib. Bizi bütün dünyada tanıdan atributlar sırasında qərarlaşdırıb.

### Əsrlərin mirasına həssas münasibət

Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda fantastik nailiyyətlərə yol açsa da, bu prosesin tarixi-mədəni irsə, ənənələrə müəyyən təhlükə meyilləri də özünü qabarıq şəkildə göstərir. Tarixdən bəllidir ki, hər hansı milləti məsum vəziyyətinə salmaq üçün ona keçmişini, milli ənənələrini unutdurmaq və yaxud da kökündən, soyundan uzaqlaşdırmaq kifayətdir. Xalqların qərinələr boyu formalaşmış yüksək mənəvi-əxlaqi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya fenomenal şəxsiyyətlərin üzərinə düşür.

Ardı 2-ci səh.

## İlham Əliyev paylaşım edib




# Prezident gənclərə stimul verdi

## İlham Əliyevlə görüş idmançıları daha böyük qələbələr qazanmağa ruhlandırdı

Azərbaycanın idman potensialı ildən-ilə daha da güclənir. Hər il beynəlxalq yarışlarda yüzlərlə medal qazanılır. İdmançılar müxtəlif beynəlxalq turnirlərdə yüksək nəticələr əldə edirlər. Bu isə onu göstərir ki, təmsilçilərimizin uğurları təsadüfi xarakter daşımır.

Dövlət rəhbərliyi xalqın, ilk növbədə, böyüməkdə olan nəslin fiziki-mənəvi sağlamlığının təmin olunması naminə idmanın inkişafını diqqətdə saxlamaqla yanaşı, ölkənin idman imicinin daha da yüksəldilməsinə çalışır. Bunun nəticəsi olaraq idman artıq ictimai həyatın mühüm tərkib hissəsinə çevrilib.

Bütövlükdə cəmiyyətdə idmançılara müsbət münasibət və böyük hörmət var. Hazırda paytaxtda və bölgələrdə müasir standartlara cavab verən olimpiya idman komplekslərinin fəaliyyət göstərməsi gənclərə, yeniyetmələrə, eyni zamanda, idmançılara yaradılan şəraitin parlaq nümunəsidir. Qazanılan bu uğurlarda güləşçilərimizin payı daha çoxdur. Belə ki, Azərbaycan güləş məktəbinin yetirmələri olan gənc olimpiya, dünya, Avropa çempionları iştirak etdikləri bütün yarışlarda rəqibləri üçün ən ciddi idmançılar sayılırlar. Pəhləvanlarımız iştirak etdikləri istənilən turnirin favoritidirlər.

Ardı 6-cı səh.



# «Qocalar evi»nin tənha sakinləri

## Həyatının ahıl çağında kimsəsiz və tənha qalmış insanlar dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunublar

Bilgəhdəki “Qocalar evi” kimi tanınan Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinə gələrkən yolboyu beynimdə çoxlu suallar dolaşırdı. Təşəbbüs ilk dəfə kimə məxsus olub? Nəyə görə ona ehtiyac duyulub?

“Qocalar evi”ndə yaşamaq valideynin, yoxsa övladınmı səhvi ucbatından olur? Bu məkanın sakini olmaq lütfdür, yoxsa bədəl?! Yolboyu məni intizarda saxlayan hisslər mənzil başına çatanda təəccüblə əvəz olundu.

### Mükəmməl sosial siyasətin nümunəsi

Geniş həyət, təmirli bina... Qapısındakı lövhəni görməsəydim, səhv gəldiyimi düşünəcəkdim.

Ardı 4-cü səh.



# Azərbaycan-Tunis dostluq münasibətləri xalqlarımızın mənafelərinə xidmət edəcəkdir

Tunis Respublikasının Prezidenti zati-aliləri cənab Kays Sayidə

Hörmətli cənab Prezident!

Tunis Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan-Tunis dostluq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Tunis xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2022-ci il*

# B.Ə.Muradovanın 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Bahar Əvəz qızı Muradova 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2022-ci il*

# Pakistan Milli Assambleyasının nümayəndə heyəti Milli Məclisdə olub

Milli Məclisin Sədr müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli ölkəmizdə səfərdə olan Pakistan Milli Assambleyasının nümayəndə heyəti ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli Azərbaycan ilə Pakistan arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümündə qonaqları parlamentdə görməkdən məmnunluğunu ifadə edib.

F.İbrahimli Azərbaycanın müstəqillik tarixindən söz açıb, iki qardaş ölkənin hər zaman bir-birinin yanında olduğunu qeyd edib və 44 günlük Vətən müharibəsi zamanı Pakistanın ölkəmizə verdiyi dəstəyə görə minnətdarlığını bildirib.

Milli Məclis Sədrinin müavini, həmçinin Azərbaycan, Türkiyə və Pakistan parlamentlərinin sədrlərinin Bakıda keçirilən birinci üçtərəfli görüşünün əhəmiyyətini vurğulayıb, bu formatın qardaş ölkələr arasında tərəfdaşlığın inkişafına xidmət etdiyini bildirib.

Pakistan İslam Respublikası Milli Assambleyasının nümayəndə heyətinin rəhbəri Sədaqət Əli Abbasi görüşə görə təşəkkürünü bildirib. Pakistan Milli Assambleyasının Sədri Əsəd Qeysərin salamlarını çatdırıb, Novruz bayramı münasibətilə təbriklərini ifadə edib. Qonaq ikitərəfli münasibətlərimizin inkişafı, əməkdaşlığımızın bütün sahələrdə dərinləşməsi barədə fikirlərini açıqlayıb.

Söhbət zamanı Pakistanın Azərbaycandakı səfiri Bilal Haye, Milli Assambleyanın İqtisadi məsələlər komitəsinin sədri Xan Məhəmməd Camali, deputatlar Saifi Qazala, Fozia Behram, Sayid Xan, Xan Zulfiqar Əli yüksək qonaqpərvərliyə görə təşəkkür edib, Novruz bayramı münasibətilə təbriklərini çatdırıb, Azərbaycanda gördükləri iqtisadi inkişaf və tərəqqiyə görə sevindiklərini bildiriblər. Parlamentarilər Azərbaycan ilə Pakistan arasındakı münasibətlərin daha da inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

Görüşdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri, Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Qənirə Paşayeva, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, deputatlar Kəmaləddin Qafarov, İlham Məmmədov və digər rəsmi şəxslər də iştirak ediblər.

# Milli birliyə və həmrəyliyə çağırış

## Ulu Öndər Heydər Əliyev Novruz bayramını milli-mənəvi dəyərlərimizin ana sütunu kimi əbədiləşdirmişdir



*Əvvəli 1-ci səh.*

Azərbaycanda bu məsuliyyətli missiyanı məhz Ulu Öndər Heydər Əliyev üzərinə götürərək hakimiyyətdə olduğu bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin böyük himayədarı qismində çıxış etmişdir. Ulu Öndər nitqlərində xüsusi vurğulamışdır ki, müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi meydana çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın ali dəyərlərinin qorunması məsələsini də çağdaş zamanın aktual məsələlərindən birinə çevirmişdir. Problemi aktuallaşdıran başlıca amil budur ki, total əxlaqın və çoxtərəfli inteqrasiyanın diktələri bir çox hallarda əsrlərin “mirasına” - milli-mənəvi dəyərlərə qarşı yönəlir. Ümummilli Liderin böyüklüyü də rəhbər vəzifəyə gəldiyi gündən bu təhdidi düzgün qiymətləndirməsi, potensial təhlükə mənbəyinə çevrilməsinin qarşısını almasıdır. Böyük rəhbər xalqın genetik yaddaşını qorumuşdur. Novruzun hər birimizin taleyindəki yerini, əhəmiyyətini, milli dirçəlişimizdəki rolunu yüksək dəyərləndirən Ulu Öndər Heydər Əliyev bu bayramı milli ideologiyamızın ana sütunu kimi əbədiləşdirmişdir.

Ümummilli Lider Novruz bayramını xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran fenomen kimi qiymətləndirmişdir: “Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir”.

### Dəyərlərin əzəməti

Novruz həm də yüksək mənəvi-əxlaqi və mədəni dəyərləri ilə cəmiyyəti irəli aparan, onu saflaşdıran, insanları sülhə, dostluğa səfərbər edən böyük tərbiyə məktəbidir. Lakin bu bayram müəyyən dövrlərdə qadağalara, təzyiqlərə məruz qalmışdır. Əvvəlcə imperiya ideoloqları müxtəlif yollarla Novruzu milli yaddaşdan silib ilhaq etdikləri ərazilərdə yeni-yeni bayramları dəbə mindirməklə onu gözdən salmağa, xalq içərisində unutdurmağa böyük cidd-cəhd göstərmişlər. Bu ənənə sovetlər dönəmində daha ağrılı şəkildə davam etdirilmişdir. Novruzun milli bayram kimi keçirilməsinə böyük qadağalar qoyulmuş, o, dini bayram hesab edilərək sovet dövləti tərəfindən unutdurulmağa çalışılmışdır. Ötən əsrin 60-cı illərinin sonlarında ölkədə milli özünüdərkə böyük qayıdış başladığı zaman bu qadağalar da tədricən səngiməyə başlamışdır. İnzibati idarə aparatının yüksək vəzifələrinə milli kadrlar gəldikcə və həmin şəxslər fürsət düşdükcə milli dəyərlərin dirçəldilməsinə öz dəstəklərini verməyə çalışmışlar.

Ümummilli Lider Heydər Əliyevin milli ənənə və dəyərlərə daxilən möhkəm bağlılığı bu bayramın xalq arasında sevilərək yaşadılmasını təmin etmiş, folklorşünaslıq və fəlsəfə sahəsində aparılan elmi tədqiqatlarda onun ideoloji-siyasi təsiri önə çəkilmişdir. Ötən əsrin 70-ci illərində isə Novruz bayramı ilk dəfə olaraq məhz Ulu Öndərin xeyir-duası ilə qeyd olunmuş, televiziya ilə yayımlanmışdır. Ümumxalq bayramının yüksək səviyyədə keçirilməsi Azərbaycan xalqının milli ruhunu yüksəltmiş, milli irsə, tarixə böyük məhəbbət yaratmış, milli özünüdərki gücləndirmişdir. Novruz adət-ənənələri o dövrdə çəkilmiş filmlərdə də özünə yer tapmışdır. Hər dəfə “Dəli Kür” filminə baxarkən Novruzun necə təbliğ olunduğunu əyani şəkildə görürük. Məhz müdrik rəhbərin qayğısı ilə həmin illərdə qorunub saxlanılan milli-mənəvi dəyərlər sonralar Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpasında müstəsna rol oynamışdır.

1991-ci ilin oktyabrında müstəqilliyə qovuşan Azərbaycanda yaşanan ziddiyyətli, təlatümlü proses və faciələr isə Novruzun əsl xalq bayramı kimi yüksək əhvali-ruhiyyə ilə keçirilməsinə imkan vermirdi. Yenə də Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdışından sonra Novruz dövlət səviyyəsində yüksək əhvali-ruhiyyə ilə keçirilmiş, dünya azərbaycanlılarının milli bayramına, ən gözəl ideoloji-siyasi təsir amilinə çevrilmişdir. Ulu Öndər 1994-cü ilin yazından başlayaraq hər il Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik etmiş, ümumxalq şənliklərinə qatılaraq xalqımıza ikiqat sevinc yaşatmış, ölkə vətəndaşlarına Vətənin çiçəklənməsi naminə birlik, həmrəylik, saflıq arzulamışdır.

### Milli xüsusiyyətlərimizi heç vaxt itirməmişik

Ulu Öndərin milli ideologiyamızın əsaslarına dair Novruz kursu bu gün artıq bəhrəsini verir. Bu milli tarixi nailiyyət Azərbaycan Prezidenti İlham Əliyevin Novruz təbriklərində və çıxışlarında aydın və birmənalı şəkildə təsdiqini tapmışdır. Bu bayramı müqəddəs milli irs hesab edən dövlət başçısı qeyd edir ki “Novruz bayramı Azərbaycan xalqının ən əziz və sevimli bayramlarından biridir... Uzun illər, əsrlər boyu biz başqa ölkələrin tərkibində yaşamışdıq. Ancaq milli xüsusiyyətlərimizi itirməmişik. Assimilyasiyaya düçar olmamışıq, öz dilimizi, adət-ənənələrimizi, milli bayramlarımızı qoruyub saxlamışıq”.

Prezident Novruz bayramını birmənalı şəkildə milli xüsusiyyətlərin - milli varlığın qorunma vasitəsi hesab edir. Bu yanaşma çağdaş Azərbaycan dövlətinin artıq bütün dünyada böyük əks-səda verən mədəniyyət siyasətinin əsasını təşkil edir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti sayəsində 2003-cü ildə Azərbaycan muğamının UNESCO tərəfindən “Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsəri” elan olunması, aşıq sənəti, Azərbaycan xalçaları və digər mədəni irsimizlə bağlı həyata keçirilmiş beynəlxalq fəaliyyət dövlətin mədəniyyət siyasətində xalqın milli dəyərlərinin prioritet kimi götürülməsinin nə qədər doğru və real siyasət olduğunu təsdiqləyir. 2009-cu ildə Birləşmiş Ərəb Əmirliyinin Əbu-Dabi şəhərində UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Komitəsinin yekun qərarına əsasən, Azərbaycan aşıq sənəti və Novruz bayramının qeyri-maddi mədəni irsin reprezentativ siyahısına daxil edilməsi milli siyasətimizdə Novruzun nə qədər böyük gücə malik olduğunun parlaq sübutudur.

Xalqımızın mənəvi mədəniyyətinin, etnik-mifoloji keyfiyyətinin müəyyənləşdirilməsində, bu xalqın qədim mifik görüşlərindən tutmuş adət-ənənəsi, həyat haqqında düşüncələri barədə aydın təsəvvürlər əldə edilməsində Novruzun rolu olduqca əhəmiyyətli və əvəzsizdir. Dünyanın bir çox, xüsusilə türk xalqları ilə bərabər, Azərbaycan xalqının milli-mənəvi varlığını bütün dolğunluğu ilə əks etdirən, ümumxalq səviyyəsində qeyd olunan, etnik təfəkkürün ümummilli amal və məramını təmin edən mexanizm məhz Novruz bayramıdır.

Ruhun oyanışı, yeni bir həyatın başlanğıcı olan bu gözəl el bayramı yenə də gəlişi ilə ömrümüzü bəzəyir. Artıq ikinci ildir ki, Novruz bayramının bir başqa büsatı, bir başqa ovqatı var. Az qala 30 il sonra Qarabağda da bayram tonqalları çatılır. Ali Baş Komandan cənab İlham Əliyevin ordumuzun gücü ilə işğaldan azad etdiyi əzəli-əbədi torpaqlarımızda Novruz sevinci yaşanır. Düşmənin dağıdıb viranə qoyduğu, bu gün isə Azərbaycan dövlətinin bərpa və yenidən qurulmasını həyata keçirdiyi yurd yerlərimiz yeni cəlalına hazırlaşır.

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***

# Müasir 4-cü nəsil protezlərlə yeni aktiv həyata doğru

Onlar şanlı zəfərimizin qəhrəmanlarıdır. 44 günlük Vətən müharibəsində keçdikləri şücaətlərlə zəngin şərəfli döyüş yolunda əzalarını itirsələr də, Azərbaycan dövləti onların yenidən aktiv həyata dönüşü üçün hər şeyi edir.



Prezident İlham Əliyevin tapşırığına əsasən, 2020-ci ilin dekabrından müharibə əlillərinin yüksək texnologiyalı müasir protezlərlə təminatına başlanılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, artıq 270 nəfər müharibə əlili yüksək texnologiyalı 290 ədəd müasir 4-cü nəsil protezlə təmin edilib.

Onlardan 188 nəfəri Vətən müharibəsi qazisi, 82 nəfəri isə I Qarabağ müharibəsi və Vətən müharibəsinə qədərki dövrdə hərbi səbəblərlə əlaqədar əlilliyi olan şəxslərdir.

“Genium” tipli müasir 4-cü nəsil protezlər aktivliyi və funksionallığı ilə qazilərimizin sərbəst və inamlı şəkildə hərəkət etmələrinə, hətta istədikləri zaman futbol oynaya bilmələrinə belə imkan verir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi yeni videoçarx da bu mövzudadır.

# Heydər Əliyev Fondunun təşəbbüsü ilə Masallıda 1 saylı uşaq bağçası üçün yeni bina tikilib



Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən Masallı rayon 1 saylı uşaq bağçasının yeni binası martın 19-da - Novruz bayramı ərəfəsində istifadəyə verilib.





AZƏRTAC xəbər verir ki, Masallı rayon 1 saylı uşaq bağçası 1939-cu ildə inşa olunub. 40 yerlik 2 qrupdan ibarət olan məktəbəqədər uşaq müəssisəsi uyğunlaşdırılmış binada fəaliyyət göstərib. Ötən müddət ərzində bağçanın binası fiziki cəhətdən köhnəliyindən və istifadəyə yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondunun təşəbbüsü ilə 100 yerlik bağça binası inşa olunub.

Tanışlıq zamanı məlumat verilib ki, 2 mərtəbəli 1 korpuslu bağça binası zəruri mebel və avadanlıqlarla, kompüter kabineti və əyani vəsaitlərlə təchiz edilib. Bağça binasında məşğələ, yataq, idman, əyləncə və musiqi otaqları, akt zalı var. Həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Bağçanın kollektivi və valideynlər yaradılan şəraitə görə Heydər Əliyev Fonduna minnətdarlıqlarını bildiriblər.

# Müdafiə naziri xüsusi təyinatlı təhsil müəssisələrində olub

Martın 19-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin əsaslı təmir olunan əsgər yeməkxanasına baxış keçirib.







Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məruzə olunub ki, ikimərtəbəli geniş yeməkxana binası yüksəkkeyfiyyətli qida məhsullarının hazırlanması üçün müasir tipli avadanlıqlarla təchiz olunub. Burada mətbəx və təsərrüfat otaqları, eləcə də ərzaq və əşya anbarları vardır. Yeməkxana kompleksində çörək istehsalı sahəsi də fəaliyyət göstərir.

Sonra general-polkovnik Z.Həsənov Silahlı Qüvvələrin Hərbi Akademiyasının tədris korpusuna baxış keçirib, əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub. Qeyd olunub ki, tədris korpusunda hərbi elm və təhsil sisteminin daha yüksək səviyyədə təşkili üçün hər cür şərait mövcuddur.

Xüsusi təyinatlı təhsil müəssisələrinin rəhbərləri, professor və müəllim heyəti qarşısında çıxış edən general-polkovnik Z.Həsənov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin göstərişinə əsasən aparılan struktur islahatları çərçivəsində Milli Müdafiə Universitetinin yaradılması ilə Türkiyə Silahlı Qüvvələri modelinin Azərbaycan Ordusunda tətbiqi, o cümlədən hərbi elm və təhsil sahəsinin inkişafı uğurla davam etdirilir.

Müasir dövrdə elmi əsaslarla yanaşmanın vacibliyini qeyd edən nazir elm və təhsilin vəhdət şəkildə tətbiqinin ordu quruculuğunda mühüm rol oynadığını, eləcə də aparılan elmi-tədqiqat işlərinin praktiki olaraq həyata keçirilməsinin əhəmiyyətini xüsusi vurğulayıb.

Sonda müdafiə naziri general-polkovnik Z.Həsənov hərbi elm və təhsil sisteminin daha yüksək səviyyədə təşkili ilə bağlı müvafiq tapşırıqlar verib, xüsusi təyinatlı təhsil müəssisələrinin heyətini qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib.

# Zakir Həsənov Novruz bayramı ərəfəsində hərbi hospitalı ziyarət edib

Martın 19-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Novruz bayramı münasibətilə Müdafiə Nazirliyinin Baş Klinik Hospitalını ziyarət edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyularaq xatirəsi ehtiramla yad edilib.

General-polkovnik Z.Həsənov hospitalda müalicə olunan bir qrup hərbi qulluqçu ilə görüşərək onların səhhəti ilə maraqlanıb, tezliklə sağalaraq xidmət yerlərinə qayıtmalarını arzulayıb.

Müdafiə naziri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təbriklərini hərbi qulluqçulara və tibb personalına çatdırıb, onlara bayram sovqatları təqdim edib.

Nazir daha sonra hərbi hospitalın əsaslı təmir olunan qərargah binasına baxış keçirib, yaradılan şəraitlə tanış olub.

Məruzə edilib ki, müasir avadanlıqlarla təchiz olunan qərargah binasında xidməti fəaliyyətin təşkili üçün hər cür şərait yaradılıb. Bütün otaqlar zəruri mebel avadanlıqları və inventarla tam təchiz edilib.

Müdafiə naziri Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində aparılan islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi, hərbi tibb sahəsində də əldə olunan uğurlardan danışıb. Tibb işçilərini bayram münasibətilə təbrik edib və xidmətin daha da təkmilləşdirilməsi ilə bağlı aidiyyəti üzrə tapşırıqlar verib.






# Azərbaycanı birləşdirən bayram

## Novruz tonqalı zəfər rəmzinə çevrilir

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paytaxtda təşkil olunan bayram şənliklərində iştirak edir və öz sevinclərini ictimaiyyətlə paylaşırlar.

Bolluğun, bərəkətin və xeyirxahlığın təcəssümü olan Novruz bayramı artıq bir neçə ildir ki, UNESCO tərəfindən beynəlxalq səviyyədə qeyd edilir. Mehriban Əliyevanın təşəbbüsü ilə 2009-cu ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Komitəsinin yekun qərarına əsasən, Novruz bayramının qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi Azərbaycanın milli siyasətində Novruzun milli özünütəşkil və yaşatma mexanizmi kimi nə qədər böyük gücə malik olduğunun parlaq sübutudur.

Eyni zamanda BMT tərəfindən 21 Mart Beynəlxalq Novruz Günü elan edilib. Azərbaycanın təşəbbüsü ilə BMT-nin Baş Assambleyasında "Beynəlxalq Novruz Günü" adlı qətnamə layihəsinin təqdimatı 2010-cu il fevralın 23-də keçirilib və qəbul olunub. BMT-nin Baş Assambleyası martın 21-ni Beynəlxalq Novruz Günü elan edib.

### Azad olunmuş torpaqlarımıza bahar gəlib

Artıq ikinci ildir ki, xalqımız Novruzu tamam başqa əhvali-ruhiyyədə qeyd edir. Çünki artıq torpaqlarımız işğaldan azad olunub. 30 ilə yaxın idi ki, düşmən tapdağında olan torpaqlarımız Novruza həsrət idi. Müzəffər Ordumuz 2020-ci ilin 44 günlük Vətən müharibəsindəki qələbə ilə xalqımızın bu mənəvi iztirabına son qoydu. Ali Baş Komandan İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü bərpa etməklə həm də Novruz bayramını Qarabağa qaytardı. İndi azad olunmuş bütün torpaqlarımızdan - doğma Qarabağımızdan baharın xoş qoxusu gəlir.

Ötən il Prezident İlham Əliyevin Şuşada, Cıdır düzündə qaladığı bayram tonqalı böyük rəmzi məna daşıdı. Çünki bu tonqal Azərbaycanın həm döyüş meydanındakı zəfərinin, həm də xalqımızın mənəvi qələbəsinin təcəssümü idi. Bununla İlham Əliyev torpaqlarımızın işğaldan azad edildiyini bir daha dünyaya nümayiş etdirdi. Bu bayram tonqalı ilə İlham Əliyev bir daha Şuşanın Azərbaycan şəhəri olduğunu bəyan etdi.

İndi bu torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Qarabağ torpaqlarını işğaldan azad edən Prezident İlham Əliyev indi ona yeni həyat bəxş edir, tarixi şöhrətini özünə qaytarır. Prezident İlham Əliyev xalqımıza təbrikində bu barədə deyir: "Məhz parlaq zəfərimizin qat-qat gücləndirdiyi xoş bahar ovqatı içində, artıq ikinci ildir ki, azadlığına qovuşmuş torpaqlarımızda hazırda yüksək sürətlə genişmiqyaslı bərpa və quruculuq işləri aparılmaqdadır. Yaz ətirli bayramımız bizi daha şövqlə çalışıb indi rahat nəfəs alan bu doğma yurd yerlərini qısa müddətdə abadlaşdırmağa və öz əvvəlki dinc həyatına qaytarmağa ruhlandırır. Vətənimizin ərazi bütövlüyü naminə canlarından keçmiş igid övladlarımızın xatirəsini bu bayram günlərində minnətdarlıqla yad edir, ölkənin müdafiəsində mətinliklə dayanan Azərbaycan əsgərinə təbriklərimi yetirirəm".

Bu bayramda xalqımız öz şəhidlərini ehtiramla anır. Məhz onlar canları bahasına torpaqlarımızı azad etdilər. İgidlərimiz sayəsində bu gün bütün dünya bizi qalib xalq kimi tanıyır.

Xalqımız özünün milli və tarixi ənənəsinə çevrilmiş Novruzu bu il daha böyük sevgi və sevinclə qeyd edir. Çünki artıq azadlığa qovuşmuş torpaqlarımıza əsl bahar gəlib. Çünki illər idi torpaq həsrəti ilə yaşayan keçmiş məcburi köçkünlər indi bu bayramı könül dolusu ilə qarşılayırlar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Birlik, bərabərlik, qardaşlıq bayramı

## Novruz Gəncədə təmtəraqla qeyd olunmuşdur

Gəncənin Heydər Əliyev meydanında təşkil olunan tədbirdə iştirakçıları əvvəlcə elimizin qədim adəti ilə əllərində şərbət olan milli geyimli qızlar qarşılamışlar. Sonra tədbir iştirakçıları istedadlı gənclərin hazırladıqları təsviri incəsənət əsərlərindən və milli geyimlərdən ibarət sərgiyə, müxtəlif idman oyunlarına baxış keçirmişlər.

İştirakçılar Gəncə Dövlət Dram Teatrı aktyorlarının Üzeyir bəy Hacıbəylinin "O olmasın, bu olsun" operettasının motivləri əsasında hazırladıqları "Bazar meydanı" tamaşasına baxdıqdan sonra xalqımızın əsrlər boyu qoruyub-saxladığı mənəvi dəyərləri ifadə edən səhnələrə, milli mətbəximizin və geyimlərimizin, xalq yaradıcılığının, el sənətkarlığının nümunələrinə tamaşa etmişlər. Kəndirbazların, sehirbazların, yoqa ustalarının çıxışları, həmçinin şəhərin rəqs kollektivlərinin rəngarəng rəqsləri, Gəncə Uşaq Evinin, Körpələr Evi-Uşaq bağçasının kollektivlərinin, Gəncə şəhər Uşaq İncəsənət Məktəbinin "Xəmsə" nağaraçalanlar ansamblının çıxışları da maraqla qarşılanmışdır.

Rəmzi olaraq Gəncənin tarixi şəxsiyyətləri Nizami Gəncəvinin, Mirzə Şəfi Vazehin, Cavad xanın obrazları canlandırılmışdır. Onlar insanları humanizmə, doğruluğa, düzgünlüyə və ədalətə səsləmişlər. Cavad xan el igidlərinə şanlı keçmişimizi xatırladaraq hamını Azərbaycanın inkişafı uğrunda həmrəy olmağa çağırmışdır.

İştirakçıları müdrik el ağsaqqalı Dədə Qorqud salamlayıb onlara xeyir-dua verdikdən sonra yazın müjdəçisi - Bahar qız yurdumuza Novruzun gəldiyini xəbər vermişdir. Cəngavərlər möhtəşəm Novruz tonqalını alovlandırmışlar. Tonqalın ətrafında Gəncə Dövlət Kukla Teatrının nəhəng kuklaları, Keçəl və Kosanın maraqlı çıxışları izlənilmiş, "Cəngi" çalınmışdır.

Vətənimizin bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Gəncə Dövlət Filarmoniyasının Göygöl Dövlət Mahnı və Rəqs ansamblı, Kamera Orkestrı, Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollecin kollektivləri qonaqların qarşısında bir-birindən maraqlı və rəngarəng çıxışlar etmişlər. Konsert proqramı M.Maqomayevin möhtəşəm "Azərbaycan" mahnısı ilə yekunlaşmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***







# Sərnişinlər Novruz bayramını Ağdamda qeyd ediblər





Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti işğaldan azad olunmuş ərazilərə təşkil etdiyi müntəzəm avtobus marşrutları üzrə bu gün sayca 71-ci reysi həyata keçirib. Yanvarın 24-dən indiyədək Şuşa və Ağdam istiqaməti üzrə ümumilikdə 3196 sərnişin səfər edib. Vətəndaşların öz doğma torpaqlarına gediş-gəlişi uğurla təmin olunub.

Marşrutların təhlili, həmçinin vətəndaşların çoxsaylı müraciətləri və tələbat nəzərə alınaraq mart ayında - Novruz bayramı günlərində Bakı-Şuşa-Bakı istiqamətində avtobus reyslərinin hər gün həyata keçirilməsi qərara alınıb. Biletlər Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin müvafiq marşrut proqramı ilə inteqrasiya olunmaqla yaradılan "www.yolumuzqarabaga.az" portalı üzərindən onlayn qaydada satılır.

AZƏRTAC xəbər verir ki, bugünkü səfər sərnişinlər üçün xüsusi əhəmiyyət kəsb edirdi. Çünki onlar 30 il Novruz tonqallarına həsrət qalmış Ağdam rayonuna bayram etməyə gedirdilər.

Sərnişinlərin yolboyu müşahidə etdiyi mənzərələr bunlar idi: dağıdılmış evlər, məhv edilmiş infrastruktur, minalanmış ərazilər.

Ağdamın talan edilməsi, xalqımızın tarixi, mədəni irsini yer üzündən silmək cəhdi, evlərə, abidələrə, hətta qəbirlərə, məscidlərə qarşı törədilmiş terror erməni vəhşiliyinin sərhəd tanımadığını bir daha nümayiş etdirir.

Düşmən nə qədər çalışsa da, hər qarışı tarix olan Ağdamda Azərbaycan ruhunu məhv edə bilməyib. Hazırda bu ərazilərdə quruculuq işləri gedir.

Bu günü Ağdam sərnişinləri bayram ab-havasında qarşıladı. Alovlanan tonqal hər kəsə qürur və sevinc hissləri yaşatdı. Nəhayət, xalqımızın Novruz bayramını Qarabağda qeyd etmək arzusu reallaşdı.

Ənənəyə görə, bu bayramda hər kəs öz evində olmalı, Novruzu doğma ocağında qeyd etməlidir. Xalq içində deyərlər: "Əgər Novruzun ilk günü öz evində olmasan, yeddi il evinə həsrət qalacaqsan". Biz də Novruzu evimizdə - Qarabağda, Ağdamda qeyd etdik. Tezliklə Qarabağın sakinləri öz doğma ata-baba yurdlarına qayıdacaq və əbədi olaraq bu torpaqlarda yaşayacaqlar.

# Zəngilanda bayram tonqalı qalandı

Xalqımızın ən qədim və əziz bayramı Novruz yurdumuza qədəm qoyur. Azərbaycan xalqı dostluq, həmrəylik və yüksək mənəviyyat bayramı olan Novruzu öz ərazi bütövlüyünü "Dəmir yumruq"la bərpa etmiş qalib xalq kimi qeyd edir. Ona görə də budəfəki bayram daha coşqulu, daha təmtəraqlı keçirilir.

Artıq Azərbaycan xalqının "Gün o gün olsun ki, Novruz tonqalları Qarabağda alovlansın" arzusu reallığa çevrilib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli Azərbaycan Ordusunun işğaldan azad etdiyi doğma torpaqlarımızda da bu gün bayram tonqalları çatılır.

30 illik Qarabağ həsrəti sona çatan keçmiş məcburi köçkünlərimiz də səbirsizliklə böyük qayıdışı gözləyirlər. Çünki illər sonra doğma el-obada Novruzu adən-ənənəyə uyğun qeyd etmək ən böyük arzularından biri olub.

Elə dünən Abşeron rayonu Masazır qəsəbəsi ərazisində kemiş məcburi köçkünlər üçün salınmış "Zəngilan" şəhərciyində təşkil olunmuş bayram tədbirində də bu fkirlər səsləndirildi.

Bayram şənliyində rayon icra hakimiyyətinin məsul işçilərinin, icra nümayəndəliklərinin əməkdaşlarının, hüquq-mühafizə orqanlarının, aidiyyəti idarə və müəssisələrin rəhbərlərinin, eləcə də rayon ictimaiyyətinin iştirak etdiyi mərasimdə qeyd edildi ki, tezliklə doğma yurda qayıdış başlanacaq və zəngilanlılar bütün bayramları evlərində təmtəraqla qeyd edəcəklər.

Bayram tədbirində rayonun idmançıları müxtəlif idman nümunələri ilə öz məharətlərini sərgilədilər. İncəsənət ustalarının təqdim etdikləri konsert proqramı ilə davam edən tədbirin sonunda ənənəvi bayram tonqalı yandırıldı.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***




# «Qocalar evi»nin tənha sakinləri

## Həyatının ahıl çağında kimsəsiz və tənha qalmış insanlar dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunublar





Əvvəli 1-ci səh.

"Qocalar evi"nə daxil olan andan yaradılan şəraiti, göstərilən xidmətləri görərkən ilk növbədə dövlətimizin öz ahıl insanlarına necə diqqət və şəfqətlə yanaşdığına əmin olduq. Bəli, Azərbaycan mükəmməl sosial siyasətin həyata keçirildiyi, o cümlədən ahıl vətəndaşların yüksək dövlət qayğısı ilə əhatələndiyi, bu kateqoriyadan olan insanlara hörmət və ehtiramla yanaşılan ölkələrdən biridir. Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamlarına, təsdiq etdiyi dövlət proqramlarına, digər sənədlərə əsasən ölkəmizdə ahılların maddi və mənəvi tələbatlarının ödənilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva tərəfindən həyata keçirilən humanist layihələr, nəcib tədbirlər ahıl vətəndaşları da əhatə edir. Fondun dəstəyi ilə ahıllara xidmət edən müxtəlif tədbirlər, aksiyalar keçirilir. Leyla xanım Əliyeva tez-tez "Qocalar evi"nə gəlir, buranın sakinləri ilə görüşür, onları dinləyir, həm də bu insanlara çox böyük mənəvi dəstək olur. Belə görüşlərin hər biri bu insanlarda sonsuz sevinc, fərəh hissi yaradır.

Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin nəzdində olan Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinin beşmərtəbəli binasında 300 sakinin məskunlaşması üçün hər cür şərait yaradılıb. Müəssisənin direktoru Samirə Mehdiyeva bizi müəssisə, sakinlər, işçi heyəti ilə tanış edərək ətraflı məlumat verdi. Dedi ki, hər bir ahıl ayrıca otaq, tibbi yardım və geyimlə təmin olunur. Kitabxana, ahılların özünüməşğulluğu, müəyyən əl işləri hazırlamaları üçün emalatxanalar, hətta idman zalı onların istifadəsindədir. Hazırda burada 188 ahıl şəxs və 67 işçi heyət var. İşçilər xüsusi diqqətlə seçilir. Belə ki, onlar tibbi, psixoloji testlərdən keçəndən sonra işə götürülürlər.

Yeri gəlmişkən, xidmət müəssisəsinə yalnız 70 yaşından yuxarı ahıllar qəbul edilir. Ahılların hər biri təqaüd alır və istədikləri vaxt mağazaya gedib, ürəkləri istəyəni ala bilir. Çox zaman bundan istifadə etmirlər, çünki ehtiyac olmur.

### "Burada hər şey ürəyimizcədir"

Müəssisənin sakinlərindən ilk olaraq, Ənvər dayı ilə tanış olduq. Bu müdrik insan qısa müddət ərzində sevgimizi qazandı. 96 yaşlı Ənvər dayı buranın ən ahıl sakinidir. O, üç ildir qızıyla birgə burada yaşayır. Qızı eşitmə və danışma qüsurludur. Uzun illərdir qızıyla birlikdə kirayədə yaşayan Ənvər dayı həm fiziki, həm maddi baxımdan özünü və qızını idarə edə bilmədiyini görəndə müvafiq orqanlara müraciət edib. "Burada hər şey ürəyimizcədir. Təmizliyimiz, geyimimiz, qidalanmağımız çox yaxşıdır. Mənimlə yaşıd, həmsöhbət olan yoldaşlarım var. Başlıcası isə, övladım gözümün qabağındadır. Onun necə sevgiylə əhatə olunduğunu, üzünün, gözlərinin güldüyünü görəndə buranı seçməyimdən rahatlıq duyuram", - deyə o bildirir.

Burada diqqətimi çəkən bir məqam bütün sakinlərin yaşlarından çox cavan görünmələri idi. Hətta bəzilərinə baxanda nə əcəb bu yaşda insanları bu müəssisəyə qəbul ediblər, deyə düşündüm də. Sonradan ünsiyyət zamanı məlum oldu ki, onların yaşı 70-dən az deyil. Belə həmsöhbətlərimdən biri də 72 yaşlı Mayıs dayıdır. O, övladları olsa da, müəyyən səbəblərdən burada yaşamaq qərarına gəlib. Ənvər dayı ilə həm də "tərəf müqabil"dirlər, asudə vaxtlarında şahmat oynayırlar. Ənvər dayı hətta Gənclər Günündə Sabunçu rayonunda keçirilən şahmat müsabiqəsində iştirak edərək mükafat da alıb.

74 yaşlı İsa dayı mülayim siması, gülər üzü ilə ilk baxışdan diqqətimi çəkdi. Əbəs deyilmiş. Demə, uzun illərin müəllimi imiş. 36 illik peşə həyatında yüzlərlə şagirdin yöngöstərəni olub. Şagirdləri, kollektivi hələ də onu xatırlayır, ara-sıra müəllimlərinə baş da çəkirlər. Səhhətindəki problemlərdən yana bir sıra ağır əməliyyatlardan sonra özünü təkbaşına idarə edə bilməyib və bura pənah gətirib. Mərkəzdə sevimli güşəsi kitabxanadır. Gününün çox hissəsini mütaliə etməklə keçirir. Ən çox da şeir əzbərləməyi sevir. Bu şeirlərdən birini bizim üçün də söylədi.

Mərkəzdə yaşayan ahılların asudə vaxtlarının səmərəli keçməsi, darıxmamaları, ən əsası da özlərini cəmiyyətdən təcrid olunmuş hiss etməmələri üçün müxtəlif tədbirlər, gəzintilər, əyləncələr təşkil edilir. Sakinlərə aşbazlıq, toxuma və tikiş kursları, yoqa dərsləri, müxtəlif peşə təlimləri keçirilir. Pandemiya bir az səngiyəndən sonra dənizkənarı parka, İçərişəhərə, konsertlərə, zooparka, mərkəzdəki restoranlara, hətta Zirəyə balıq tutmağa da gediblər. Samirə Mehdiyeva deyir ki, "Xeyirxah insanlarımız, vətəndaşlarımız bizə maddi dəstək olmaq istəsələr də, onu qətiyyən qəbul etmirik. Çünki buna ehtiyac yoxdur".

Bu yaxınlarda gözəl bir təşəbbüsü də gerçəkləşdiriblər. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Maştağa qəsəbəsindəki Mədəniyyət Mərkəzində "23.59 qatarı" adlı birpərdəli tamaşa səhnələşdirilib. Tamaşa Türkiyə dramaturqu Toyqun Orbayın "21.15 qatarı" pyesi əsasında hazırlanıb. Səhnədə tanınmışlarla yanaşı, "Ahıllar evi"nin sakinləri və işçiləri də yer alıblar.

Tamaşada iştirak edən Həbib dayı deyir ki, artıq 17 ildir ki, burada yaşayır. Stolüstü oyunları çox sevən, insanlarla rahat ünsiyyət qurmağı bacaran Həbib dayı gözəl səsi ilə də eşidəni valeh edir. O, mütəmadi olaraq müəllimləri ilə mərkəzə gələn şagirdlərin sevimli həmsöhbətidir. Onlar Həbib dayının ifa etdiyi mahnıları isə xüsusi zövqlə dinləyirlər. Müəssisənin onun evi olduğunu söyləyən ağsaqqal burada həyat yollarının kəsişdiyi Məleykə xanımla birlikdə 14 ildir ki, ömürlərinin ikinci baharını yaşayırlar. Onlar Novruz bayramına sevinclə hazırlaşıblar. Əslində, indi burada hamı bu işə səfərbər olub. Səməni qoyur, xonçalar hazırlayır, bayram şirniyyatları bişirir, abadlıq işləri görürlər.

Sona xanımla Elmira xanım da uzun illərdir burada yaşayırlar. Bacı kimidilər. Otaqları ayrı olsa da, günün, demək olar ki, çox hissəsini birlikdə keçirilər.

Yazın gəlişi bura da bir ayrı ab-hava gətirib. İsti havalarda müəssisənin sakinləri bağda əkdikləri güllərə, ağaclara qulluq edirlər, geniş, səliqəli həyətdə gəzintiyə çıxırlar, hələ trenajorlardan da istifadə edərək fəal həyat tərzi keçirirlər.

### Müəssisədə heç bir ahıl koronavirusa yoluxmayıb

Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində yaşayanların səhhəti də daim nəzarətdə saxlanılır, onların sağlamlığına xüsusi diqqət göstərilir. Mərkəzdə ilk tibbi yardımın göstərilməsi üçün lazımi imkanlar var. Eyni zamanda dövlət dəstəyi ilə müraciət etdikləri bütün xəstəxanalardan yüksək diqqət görürlər. Həkimlər də mütəmadi olaraq bura gəlib sakinləri müayinə edir, xəstəliklərinin erkən aşkarlanması və qarşısının alınması üçün müvafiq işlər görürlər. Əgər ehtiyac varsa, xəstəxanaya yerləşdirirlər.

Pandemiyadan öncə həftə sonları yaxınları, qohumları ahılları ziyarətə gəlir, birlikdə vaxt keçirirdilər. Karantin dövrü olduğu üçün sakinlərin yaşları, səhhətləri nəzərə alınaraq hələlik bu görüşlərə icazə verilmir. Elə buna görə və digər tədbirlər səbəbindən pandemiya müddətində mərkəzin bir sakini belə xəstəliyə yoluxmayıb.

Psixoloqlar da mütəmadi olaraq mərkəzə gəlir, fərdi və qrup şəklində söhbətlər aparır, öz yaşıdları ilə ümumi dil tapması, mərkəzə adaptasiya prosesinin rahat keçməsi üçün psixoloji dəstək göstərirlər.

Əslində, belə müəssisələrdə insanlararası münasibətlərdəki tarazlığı qorumaq çox çətindir. Müxtəlif xasiyyətli, uzun bir həyat yolu keçmiş, dünyagörüşü və dünyaya baxışı fərqli olan bu qədər insanın, necə deyərlər, bir damın altında yaşaması heç də asan deyil. Bu da rəhbərlikdən və işçi heyətindən səbir, diqqət, ən əsası isə, peşəkarlıq tələb edir. Gördüyüm qədərilə onlar bu işin öhdəsindən bacarıqla gəlirlər.

Bu cür sosial müəssisələr hər bir dövlətin simasıdır. Dövlətin humanistlik, insanlıq, inkişaf səviyyəsinin təyini üçün meyardır. Bu baxımdan Azərbaycanda ahıl vətəndaşlara göstərilən bu qayğı dövlətimizin sosial siyasətinin ən gözəl nümunələrindən biridir. Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində gördük ki, respublikamızda tənha ahıllara dövlət qayğısının artırılması, onların rahatlığı, sosial təminatının gücləndirilməsi üçün ardıcıl addımlar atılır. Bir daha əmin olduq ki, həyatının ahıl çağında bu və ya digər səbəblərdən tənha qalmağa məhkum olmuş insanlar dövlət tərəfindən hərtərəfli təminatla əhatə olunublar.

***Ülkər XASPOLADOVA, İlham BABAYEV (foto), "Azərbaycan"***





# Bir cənub şəhərində Novruz tonqalı

## Lənkəranlılar bayramlarını böyük coşqu və təmtəraqla keçirirlər

Lənkərandayıq. Burada əsl bayram əhvali-ruhiyyəsi var. Cənub bölgəsində, xüsusən də talış xalqının nümayəndələrinin kompakt yaşadıqları Mamusta kəndində Novruz bayramının İlaxır çərşənbəsi qeyd edilirdi. Özlərinin də söylədiyi kimi, bu gün - İlaxır çərşənbə onlar üçün bayram günündən də çox əzizdir. Ona görə də çərşənbəyə xüsusi hazırlıq görürlər. Ən çox sevinən isə uşaqlardır. Talış dilində söylədikləri mahnılar və şeir parçaları da diqqəti cəlb edir...

### Qeyri-adi çərşənbələr

Füsunkar təbiəti ilə diqqəti cəlb edən kənd bahar günlərində yaşıl libasa bürünmüşdü. Narın-narın yaz yağışı yağırdı. Amma yağmurlu hava bayram hazırlıqlarını əngəlləmirdi.

Kəndin azyaşlıları, yeniyetmələri tonqal üçün tədarük görməyə başlamışdılar, tapdıqları odunları gətirib yandıracaqları yerə toplayırdılar.

Buranın bayram adət-ənənəsi ilə yaxından tanış olmaq üçün şəhid F.Hüseynov adına Mamusta kənd Folklor Evinin direktoru Nurlana İbrahimova ilə söhbətləşə-söhbətləşə kəndi gəzməyə başlayırıq. Nurlana xanım deyir ki, talışların özünəməxsus adətləri onların dili və geyim tərzidir. Novruz bayramını isə xüsusi təmtəraqla qeyd edirlər: "Biz Novruzda bayatılarımızı, mahnılarımızı oxuyaraq ən sevimli bayramımızı qarşılayırıq. Həmçinin başımıza, belimizə bağladığımız saçaqlı örpəklərimiz ifa olunan mahnılarla ahənglik yaradır".

Bayramdan danışarkən çərşənbələrin də bu kənddə bayram qədər qeyri-adi keçirildiyi məlum oldu.

Başlayaq Su çərşənbəsindən. Həmin gün sübh tezdən bütün kənd "Uğru çayı" (Dizə ru) adlanan axar çaya üz tutur. Uşaqdan tutmuş böyüyə qədər hər kəs yol uzunu şeirlər, bayatılar oxuyaraq su başına gedib çatırlar. Su ilə əl-üzlərini yuyub, mənfi ruhlardan azad olmaq üçün oradan su götürüb evlərinə qayıdırlar. Həmin su aydınlığın, xeyirin simvoludur. Xəstə adamların üzünə çilənən, evlərin hər küncünə səpilən su ilə sanki yenidən həyat başlayır.

Nurlana xanım deyir ki, Mamusta kəndinin uşaqlarını milli ruhda yetişdirmək üçün hər çərşənbə məktəbdə şənlik təşkil edilir. Qızlar və oğlanlar xüsusi geyimlər geyinərək hazırladıqları bayram xonçalarını təqdim edirlər. Daha sonra tədbirdə bahar şeirləri ilə çıxış edən qızlar, sıralarını milli musiqinin avazı ilə rəqs edən oğlanlara verirlər. Həmçinin adətləri, bölgəyə xas dəyərləri də məktəblilərə aşılanır.

### "Bıştə", zeyrən çörəyi, müxtəlif rəngli papaqlar, sovqatlar

Kəndi gəzə-gəzə gəlib çıxırıq ağbirçək şair Azadə Qasımovanın evinə. Qonağı olduğumuz Azadə xanım neçə-neçə Novruzu qarşılayıb yola saldığını və bu bayramla bağlı uşaqlıqdan ahıllığa qədər bir dastanlıq xatirələri olduğunu deyir: "Ay qızım, elə istəyərdim ki, əvvəllər keçirilən bayramlara siz də şahidlik edəsiniz. Biz kənddə hələ də əvvəlki ab-havalı şənlikləri qoruyub saxlamışıq. Nəvələrimi, nəticələrimi o günlərlə tanış etmək, onlara adət-ənənələrimizi aşılamaq üçün kəndin qocaman sakinləri ilə birlikdə hər il çalışırıq ki, bu bayramı təntənəli keçirək".

Azadə xanımın bayram süfrəsi hazır idi. Novruza xas şirniyyatlardan əlavə masaya talışların mətbəxinə aid olan təamlar da qoyulmuşdu. Süfrədəki zeyrən çörəyi, partlama çörəyi, qəndi külçə kimi şirniyyatlar, balıq, tərə, ləvəngi yeməkləri onların məxsusi mətbəxlərinin inciləri kimi görünürdü.

Artıq axşam düşürdü. Döyülən qapılar isə havanın qaraldığından xəbər verirdi. Qapıların kandarında müxtəlif rəngli papaqlar öz paylarını gözləyirdi. Ehmallıca hər birinə bol-bol bayram azuqələri dolduran Azadə xanım heç bir nəvəsini (kənddəki hər uşağı belə adlandırır) əliboş yollamırdı.

Süfrə arxasında əyləşdiyimiz zaman duyulan o istilik və xoşbəxtlik bəlkə də bütün buzları əridəcək, mənfi enerjini yox edəcək gücə malik idi. Gülüş səsləri, danışılan xoş xatirələr isə qapı pusanların üzlərini güldürməyə, əhvallarını şad etməyə əsl səbəblərdən idi.

Bayırdakı tonqal başına yığışmağın məramı yetişmişdi. Qonşuların tonqala haraylarını eşidər-eşitməz çəkmələrini geyinib özlərini tez həyətə atan Azadə xanımın nəvələri sən demə elə bu anı gözləyirlərmiş. Kəndin bütün sakinlərinin bir araya toplaşa biləcəkləri geniş ərazidə bayram tonqalı qalanmışdı. Hündürlüyü ilə az qala kəndin istənilən yerindən görünəcək qədər əzəmətli idi.

Yavaş-yavaş kənd sakinləri tonqal ətrafına yığışmağa başladılar. Evdən çıxanda "bıştə"ləri də özümüzlə götürdük. Bıştə talış dilində yayda becərilən dənli bitkilərdən olan mərci, boranı tumu, noxud və s. kimi çərəzlərdir. Talışların adətinə görə tonqaldan sonra közündə belə dənli bitkilər qovrularaq qonaqlara təqdim edilir. Daha sonra zümzümə ilə başlayan musiqi xor mahnısına çevrildi. Böyüklər bu mahnını oxuyur, uşaqlarsa musiqi sədaları altında sanki bir-birləri ilə yarışırmış kimi hündür tonqaldan tullanmaq bacarıqlarını nümayiş etdirirdilər.





Tonqala yaxınlaşan hər kəs bu sözləri təkrar edirdi:

*Ağrıların getsin 7 dağ,*
*7 dənizdən o taya.*

Verilən xeyir-duaların ardıarası kəsilmirdi. Hər kəs bir-birinə xoş ovqat bağışlamaq üçün arzu, istəklərini dilə gətirirdi. Bu maraqlı mənzərəyə tamaşa etmək insanın ruhunu oxşayırdı. Elə bu xoş ovqatla da onlarla sağollaşıb "bıştə" yeyə-yeyə kənddən ayrıldıq.

### Qədimdə çərşənbələrin sayı 7 olub

Lənkərana getmişkən bayramla bağlı ziyalıların da fikirlərini öyrənmək üçün onlarla həmsöhbət olduq. Yazıçı, publisist Hafiz Mirzə suallarımızı cavablandırmaq üçün bizi evində qonaq etdi. Hafiz müəllim öncə Novruzun inkişaf mərhələsi və lokal xarakteri ilə bağlı məqamları dilə gətirdi, bayramın tarixi köklərindən danışdı. Onu da dedi ki, Novruz sovet dövründə keçirilməsi qadağan olunan bayramlardan biri idi.

Sovet ideologiyasının tətbiq etdiyi qadağalar, milli adət-ənənələri yox etmə cəhdləri, hər vəchlə xalqa öz kimliyini unutdurmaq təşəbbüsləri aydın şəkildə sezilirdi. Lənkəranda isə əhali gizlin də olsa, öz bayramlarını qarşılayıb hazırlıqlarını görürdülər. Hafiz müəllimin sözlərinə görə, Novruz burada daha maraqlı, cazibəli və gözəl keçirilirdi: "Bu, bəlkə də onun "qadağan edilmiş meyvə" effektindən irəli gəlirdi. Biz uşaq vaxtı Novruz bayramında təzə paltar geyinər, yumurta döyüşdürər, qohum-əqrəba qapısına qurşaq (xurcun) atar, tonqal üstündən hoppanar, səməni qoyar, şirin çörəklər bişirər, bayram süfrəsi bəzəyərdik. Eynilə indiki kimi. Sadəcə, bu bayram kütləvi şəkildə, ümumxalq bayramı kimi qeyd edilmirdi. Sovet dövründə ilk dəfə Şıxəli Qurbanov bu bayramı meydana çıxartmışdı. Biz "milli dəyər" dedikdə ilk olaraq Novruz bayramını nəzərdə tuturduq. Bu təfəkkür bizim etnogenezimizdən gəlirdi və kimsə onu bizdən ala bilməzdi".

Söhbətimiz zamanı Novruzla bağlı maraqlı məqama da toxunan Hafiz Mirzə dedi ki, əslində qədimdə çərşənbələrin sayı 7 olub. Yəni, hazırlıqlara Novruza ay yarım əvvəldən başlanarmış. Bayrama çərşənbələr hazırlıq dövrünə aid olduğundan təbiətin 4 ünsürü (su, od, torpaq, hava) üzrə çərşənbələr əsas qəbul edilib.

Novruzun tarixindən və keçmişindən savayı onun bir sıra adətləri mövcuddur, hər ənənənin ardında bir inanclı hekayə dayanır.

Hafiz müəllimdən ayrılıb Lənkəran Dövlət Universitetinin müəllimi, filologiya üzrə elmlər doktoru, professor Yədulla Ağazadə ilə görüşüb bu mövzunu müzakirə etdik. Novruzu mərasim kompleksi adlandıran müəllim bayramın dünyəviliyi ilə də xarakterizə olunduğunu bildirdi: "Dünyanın bir çox yerlərində təbiətin oyanışını müxtəlif adlarla qeyd edirlər. Şərq ölkələrində isə bu bayrama Novruz adı verilərək rəngarəng adətlərlə keçirirlər. Novruzun mahiyyəti yeniliyə, işığa, xeyirə çıxmaqdır. Elə buna can atan talışlar da dekabr ayının 21-i böyük çillənin daxil olması ilə seçilən gündən qışın sərtliyindən qorxmadıqlarını, yaza doğru inanclı şəkildə irəlilədiklərini göstərmək üçün müxtəlif nemətləri alaraq süfrəyə düzürlər. Stola qoyulan qarpız qışdan yaza irəliləyən dönəmi təmsil edir. Belə ki, çölünün yaşılı baharı, içinin soyuğu isə qışı xatırladır. Bundan əlavə, 40 gün davam edən böyük çillədə talışlar səməni halvası da bişirirlər".

İlaxır çərşənbənin bu bölgədə daha təntənəli qeyd edilməsinin səbəbini isə müəllim belə izah etdi: "Çərşənbələri qeyd etməyimizin əsasında üzərimizdəki ağırlıqları bir-bir atmağımız dayanır. Qalanan tonqalla onun üzərindən tullanaraq şəri ötən ildə qoymağı, xeyiri isə sonrakı günlərdə qarşılamağı ümid edirik. Sonuncu çərşənbənin isə xüsusi önəmi ondan ibarətdir ki, artıq bütün mənfiliklərdən təmizlənərək yeni ili qarşılamağa tam hazır olduğumuzu bildiririk".

Milli dəyərlər onları qoruduğumuz müddətcə bizimlədir. Adət-ənənələr bir ölkəni bir çox cəhətdən qorumaqda, həmçinin insanın kim və haraya aid olduğunu xatırladan əsas meyardır. Cəmiyyət onlarsız birlikdə yaşaya bilməz.

Novruz bayramınız mübarək!

***Aydan XƏLİLOVA, "Azərbaycan"***

## 21 Mart Beynəlxalq Meşələr Günüdür



# Qarabağın meşələri bərpa olunur

### İşğaldan azad edilən torpaqlarımızda indiyədək 40 mindən çox ağac tingi əkilib

Otuz il ərzində Qarabağdakı nəinki tarixi, mədəni-dini abidələrimiz, infrastrukturumuz, hətta bu yerlərin hər daşı da, torpağı da erməni terroruna məruz qalıb. Bu illər ərzində Qarabağın təbiəti ekoloji terror nəticəsində tamamilə məhv edilib.

İşğal dövründə Azərbaycanın 261 min hektar meşə fondu sahəsi ermənilərin vandalizm cinayətlərinə məruz qalıb. Hələ 1988-ci ildən dağıdılmağa başlanılan Topxana meşəsində bu illər ərzində minlərlə ağac kəsilib. Yaşıllığı, səfalı yerləri, gözəl təbiəti ilə seçilən Qarabağı yerləyeksan edən erməni barbarları 30 il ərzində orada heç bir dənə də olsun ağac əkməyiblər. İllərlə bu faktları gizlətsələr də, Vətən müharibəsindəki şanlı zəfərdən sonra dünya bir daha erməni barbarlığına şahidlik etdi.

Bu gün isə qalib Azərbaycan dövləti işğaldan azad edilmiş torpaqlarımızda tikinti-quruculuq işləri ilə yanaşı, yaşıllıqları da bərpa etməyə başlayb.

### Zəfər gününün şərəfinə əkilən 44 min ağac

Müharibədən dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə ermənilərin ekologiyaya vurduqları ziyan aradan qaldırılmağa başlanıldı. Böyük qələbədən ötən bir ildə - Zəfər günündə 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cıdır düzündə ağac əkdilər. Bununla da Topxana meşəsinin bərpasına başlanıldı.

Bundan sonra Heydər Əliyev Fondunun layihəsi çərçivəsində "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri tərəfindən Topxana meşəsində ağacəkmə aksiyası keçirildi.

2020-ci il dekabrın 3-də Zəngilanın Ağalı kəndində IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən ağacəkmə aksiyasında ərazinin torpaq-iqlim şəraitinə uyğun 500 ədəd müxtəlif cinsli ağac əkilib, palıd, Şərq çinarı və tut ağaclarının toxumları əraziyə səpilib. Bununla Zəngilanda ekoloji dayanıqlığın bərpasının başlanğıcı qoyulub.

Ötən ilin dekabrında Qarabağ Dirçəliş Fondu və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Zəngilanda ekoloji müxtəlifliyin qorunması məqsədilə daha 1000 ədəd ağac əkilib. Layihə çərçivəsində Zəngilan şəhərinin girişində 30 hektar ərazidə 30 min ağacın - əsasən yerli iqlim şəraitinə uyğun eldar şamı, həmişəyaşıl sərv, göyrüş, şeytan ağaclarının və Şərq çinarının əkilməsi nəzərdə tutulur. Bu layihənin 2022-ci ilin payızında yekunlaşdırılması planlaşdırılır.

### "Şuşa ili" çərçivəsində şəhərdə yaşıllaşdırma tədbirləri davam edəcək

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Ətraf mühitin və təbii sərvətlərin tənzimlənməsi şöbəsinin müdir müavini Raqub Mirzəyev qəzetimizə bildirib ki, indiyə kimi Cəbrayıl, Zəngilan, Qubadlı, Füzuli, Laçın, Kəlbəcər, Ağdam rayonları və Şuşada ümumilikdə 40 mindən çox ağac tingləri əkilib. Burada eldar şamı, göyrüş, qarağac, dağdağan və digər müxtəlif cinsli ağaclar əkilib, 2 tondan çox palıd toxumu səpilib. Şuşada Topxana meşəsində və şəhərin bəzi yerlərində 1000 ağac - dağdağan, göyrüş, qarağac və saqqız ağacı, 200 kiloqram palıd toxumu əkilib. Bu il "Şuşa ili" çərçivəsində Şuşa şəhərinin ətrafında yaşıllaşdırma tədbirləri davam etdiriləcək.

Raqub Mirzəyevin sözlərinə görə, həmin ərazilərdə yerli və iqlim şəraitinə uyğun olaraq ağaclar əkilir. Zəngilan və Ağdamda əkilən yaşıllıq sahələrinin hamısında damcılı suvarma sistemi qurulub. Hazırda ağacəkmə tədbirləri davam etdirilir: "2022-ci il ərzində Zəngilanın giriş hissəsində terras sahələrdə, təxminən 55 hektar ərazidə, eyni zamanda Cəbrayıl-Hadrut avtomobil yolunun sağ tərəfində - 15 hektar sahədə və Füzulidə 200 hektara yaxın ərazidə yeni yaşıllıq sahələrinin salınması nəzərdə tutulub. Həmçinin işğaldan azad edilmiş ərazilərdə magistral avtomobil yollarının kənarında da yeni yaşıllıqlar salınacaq. ETSN və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin birgə layihəsi çərçivəsində yol kənarlarında ağac və kollar əkiləcək".

### Bu il Qarabağ və Şərqi Zəngəzurda 455 hektara yaxın ərazidə ağac əkilməsi nəzərdə tutulur

Raqub Mirzəyev qeyd edib ki, nazirlik tərəfindən 2022-2026-cı illəri əhatə edən "Meşə Fondunun Bərpası" Proqramı hazırlanıb. Proqram çərçivəsində ümumilikdə 30 min hektar meşə fondu sahəsinin bərpası üçün meşə bərpa, əkin və təbii bərpa işləri aparılacaq. Ərazilər minalardan təmizləndikcə həmin ərazilərdə yaşıllıqların salınması həyata keçiriləcək.

Yaz aylarında ilk olaraq Zəngilan rayonunun giriş hissəsində - 55 hektar sahədə ağacların əkilməsi planlaşdırılıb, əkinə tam hazırlıq gedib. Raqub Mirzəyev vurğulayıb ki, əslində burada ağacəkmə işlərinə artıq başlanılıb, 15 minə yaxın ağac əkilib və bu proses davam etdiriləcək.

R.Mirzəyev ötən il Kəlbəcər və Laçın ərazisində də ağaclar əkildiyini, amma hazırda həmin ərazilərdə mina təhlükəsi olduğundan geniş sahədə ağac əkməyin mümkün olmadığını bildirib. Bu il ərazilər minalardan təmizləndikcə 455 hektarda ağacəkmə tədbirləri nəzərdə tutulub.

IDEA İctimai Birliyindən qəzetimizə bildirilib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilmiş "Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı" adlı layihə çərçivəsində ötən il Qarabağda ağacəkmə aksiyası həyata keçirilib. IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Gənclər Fondunun birgə layihəsi çərçivəsində təbiət elmləri sahəsində təhsili olan və bu sahədə fəaliyyət göstərən 60 gənc ekoloqun Cəbrayıl, Füzuli, Qubadlı, Xocavənd, Zəngilan, Ağdam və Şuşa daxil olmaqla işğaldan azad edilmiş ərazilərə çoxsaylı səfərləri təşkil edilib. Səfərlər zamanı onlar sözügedən ərazilərdə aparılan ekoloji qiymətləndirmədə, o cümlədən xüsusi cihaz və qurğularla havada olan radiasiya fonu, suyun keyfiyyəti, torpağın analizi və s. proseslərdə iştirak etmiş, işğal nəticəsində törədilmiş ekosidi əyani şəkildə görmüşlər.

IDEA İB-dən bildirilib ki, layihə çərçivəsində Füzulidə 50, Zəngilanda 60, Ağdamda 70 şam ağacı, Qubadlıda və Şuşada isə 50 göyrüş ağacı əkilib. Bundan başqa, Qubadlı və Füzulidə 5 kiloqram palıd toxumu səpilib.

### "Zəfərdən dirçəlişə" meşə massivi layihəsi

Qarabağ Dirçəliş Fondunun PR və kommunikasiya üzrə koordinatoru Pərvin Məmmədova qəzetimizə bildirib ki, işğaldan azad olunmuş ərazilərdə meşə massivinin salınması, ekoloji tarazlığın və təbiət obyektlərinin bərpası üzrə birgə tədbirlərin həyata keçirilməsi, əlverişli həyat şəraitinin yaradılmasına dair tədbirləri ölkə daxlində, eyni zamanda xaricdə təşviq etmək məqsədilə fondla Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında memorandum imzalanıb.

Zəngilanda həyata keçirilən "Zəfərdən dirçəlişə" meşə massivinin salınması layihəsi bu memorandum çərçivəsində həyata keçirilən ilk layihədir.

"Zəfərdən dirçəlişə" layihəsinə ilk olaraq Zəngilanda başlanılıb və layihənin birinci mərhələsi çərçivəsində 30 hektar ərazidə 30 min ağacın əkilməsi nəzərdə tutulur. Bu mərhələ üçün artıq 30 min ağac əldə olunub və bu ağacların əkilməsi mərhələli şəkildə davam edir. Eyni zamanda "Zəfərdən dirçəlişə - 2" layihəsi də artıq start götürüb. İkinci mərhələdə Zəngilanda 20 hektar ərazidə 20 min ağacın əkilməsi nəzərdə tutulub. Bu layihələr çərçivəsində yalnız ağacların əkilməsi deyil, əkin materiallarının yetişdirilməsi, enerji təminatı, suvarma sisteminin qurulması, əkilmiş sahələrə müntəzəm nəzarət edilməsi, prosesi izləmək məqsədilə 3 il əzində dron vasitəsilə foto, videoçəkilişlərin aparılması nəzərdə tutulub.

Bu layihədə iştirak edən bütün donor şirkətlərə fond tərəfindən "İanə Sertifikatı" təqdim edilib: "Fondun veb səhifəsi vasitəsilə məbləğindən asılı olmayaraq ianə edən hər kəs "İanə sertifikatı" əldə edə, digər şəxsin adına alaraq hədiyyə edə və paylaşaraq digər insanları da bu mühüm missiya ətrafında birləşdirə bilər. Ümumi "İanə sertifikatı" ilə yanaşı, əlamətdar günlər münasibətilə də sertifikatlar əldə edib hədiyyə etmək mümkündür. 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə bəzi şəxslər, qurumlar, korporativ şirkətlər onlara əziz və doğma olan xanımları Qarabağda ağac hədiyyə etməklə sevindirib".

Bu təşəbbüs təbiətin oyanışı ilə əlaqədar Novruz bayramında da davam etdirilir. İstənilən şəxs sayta daxil olaraq "Qarabağa ağac ianə et" düyməsindən istifadə etməklə istəyinə uyğun sayda ağac ianə edə və əldə etdiyi sertifikatı hədiyyə edə bilər.

Meşə massivinin salınması layihəsi yalnız Zəngilanda deyil, işğaldan azad olunmuş digər ərazilərdə də davam etdiriləcək. Qarabağ Dirçəliş Fondunun prioritet istiqamətləri arasında ekoloji tarazlığın bərpası önəmli yer tutur. Çünki torpaqlarımız işğaldan azad edildikdən sonra ərazilərimizə dəyən zərərin miqyası da üzə çıxıb. Qarabağda mədəniyyət obyektləri, yaşayış yerlərimizlə bərabər, ekologiyaya da çox ciddi zərər dəyib. Bu zərərin aradan qaldırılması üçün mütləq şəkildə gücləri birləşdirmək, müxtəlif təşəbbüslər həyata keçirmək olduqca vacibdir.

Əkilən hər bir ağac, gül kolu Qarabağın təbiətinə can qatacaq. Zamanla Qarabağda, Şərqi Zəngəzurda əvvəlki yaşıllıqlarımızın, meşələrimizin bərpasının şahidi olacağıq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Vətənin yaşıl ormanları

### Azərbaycanın 246 min hektar meşə sahəsi Ermənistan tərəfindən vəhşicəsinə qırılıb və talan edilib



Ana təbiətin bir parçası olan meşələr dünya üzrə quru ərazinin üçdəbiridir. Bu o deməkdir ki, Yer kürəsində meşələrin ümumi sahəsi 4 milyard hektardır. Meşə ilə örtülü ərazilərin daha çox hissəsi Rusiyanın, Braziliyanın, Kanadanın və ABŞ-ın payına düşür.

Yer qatının münbitləşməsində xüsusi əhəmiyyət daşıyan meşələrə, təəssüf ki, heç də hər yerdə və bütün dövrlərdə münasibət birmənalı şəkildə müsbət olmayıb. Bu təbii sərvətə laqeydlik nəticədə onun sahəsinin azalmasına gətirib çıxarıb. Məhz bunun bəlasıdır ki, son 200 ildə dünya üzrə meşə ərazilərinin sahəsi 2 dəfədən çox azalıb.

Ümummilli Lider Heydər Əliyevin meşələrin qırılması haqqında çox ibrətamiz kəlamlarının birində deyilir: "Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir".

Azərbaycan öz füsunkar gözəlliyi, zəngin təbii sərvətləri, al-əlvan flora və faunası ilə də dünyada şöhrət qazanıb. Meşələrimizdə 48 fəsiləyə, 135 cinsə mənsub olan 450 növ ağac və kollar bitir. XVII-XIX yüzilliklərdə Azərbaycan torpaqlarının 35 faizi meşələrdən ibarət olub. Bu gün isə onların ümumi sahəsi 1213,7 min hektardır. Ölkəmizdə adambaşına təqribən 0,12 hektar meşə sahəsi düşür. Çox hissəsi qiymətli ağac cinslərindən ibarət olan meşələrimizdə palıd, fıstıq, vələs, cökə, ağcaqayına daha çox rast gəlinir.

Azərbaycan meşələrinin 95 faizə qədəri dağlıq və dağətəyi, qalanı isə əsasən çay vadilərində, düzən ərazilərdə yayılıb. Meşələrimiz yayıldığı əraziyə görə sırf qoruyucu funksiyaları yerinə yetirir. Ərazisinin 20-25 faizi meşə ilə örtülü olan ölkələrdə su qıtlığına, qeyri-sabit iqlim şəraitinə, torpaqların deqradasiyasına və eroziyasına, bataqlıq və şoranlıq sahələrə az təsadüf edilir. Ona görə də meşələrimiz ciddi mühafizə olunmalı, qorunmalı və artırılmalıdır. Təəssüf ki, ana qədər doğma olan təbiətin bu guşəsini bəzən insanlar məhv edir. Məişət tullantıları ilə çirklənən meşələrə hətta od vurulub-yandırılır...

Ermənistan Azərbaycanın işğal etdiyi 20 faiz ərazilərində nəinki şəhər və kəndləri dağıtdı, üstəlik, orada bitki və heyvanlar aləminin məhv edilməsinə, bütövlükdə ekoloji tarazlığın pozulmasına səbəb olan terrorçuluq əməlləri törətdi. İşğal dövründə qanunsuz yol tikintiləri aparılmış, meşələr kütləvi surətdə qırılmış, bombardmanlar və yanğınlar nəticəsində Qazax, Tovuz, Gədəbəy, Zəngilan, Qubadlı, Kəlbəcər, Göygöl rayonlarının meşələrindən yarım milyondan artıq ağac və kollar, 152 ədəd relikt ağac növləri, hektarlarla qiymətli meşə sahələri, 665 hektar təbii bərpa meşələri, 75 hektar süni meşəsalma materialı, təbiət abidəsi statusu almış 5 geoloji obyekt vəhşicəsinə dağıdılaraq kommersiya məqsədləri üçün istifadə edilmişdir.

İşğal altında olan, əsasən Ağdam rayonu ərazisinə Ermənistandan gətirilən radioaktiv tullantılar yerləşdirilib. Ümumilikdə Qarabağda min hektarlarla meşə sahəsi nüvə tullantıları ilə çirkləndirilib. Qazax rayon istiqamətində Murovdağ silsiləsi boyu, Ağdərə rayonu istiqamətində Talış, Gülüstan, Baranbart meşələrində, Qubadlı rayonunun Əyin, Hərtiz, Zor, Fərcan meşələrində 100 hektarlarla sahədə fıstıq, saqqız, şam, palıd, qoz və s. çoxillik ağaclar kəsilib.

Ermənilərin ərazilərimizə, xüsusən də meşələrimizə qənim kəsilməsi yalnız yuxarıda göstərilən rəqəmlərlə hesablanmır. Belə ki, Ağdərə və Xankəndi meşə təsərrüfatlarının böyük ərazisini əhatə edən məhsuldar fıstıq, Laçın rayonunun Şəlvə dərəsindəki dekorativ oduncaqlı, irigövdəli, qırmızı palıd meşələri də talan olunub. Kəlbəcərin meşə təsərrüfatındakı ayıfındığı, Zəngilan rayonunun 107 hektar ərazisindəki qoruq isə demək olar ki, Yer üzündən silinib. Çinarlıqlar hissə-hissə kəsilərək İran mebel fabriklərinə və başqa tikinti sənaye müəssisələrinə satılıb.

2000-ci ildə Zəngilanda 70 nadir çinar ağacının hər biri 100 ABŞ dollarına satılıb. 110 çinar ağacı kökündən çıxarılaraq Göyçə gölünün sahillərinə və İrəvan şəhərinin ətrafına köçürülüb. Bəsitçay qoruğundakı möhtəşəm çinar və qoz ağacları Ermənistan tərəfindən kütləvi qırılaraq xarici ölkələrə satılıb. Bəsitçay Dövlət Təbiət Qoruğundaki şərq çinarlarının bəzilərinin yaşı 1200-1500 ilə çatırdı. Onların gövdələrinin diametri 4 metr, hündürlüyü 54 metrdən yuxarı olub. Avropada analoqu olmayan bu ağaclar tamamilə məhv edilib.

Beləliklə, Azərbaycanın təbii sərvətlərinin talan edilməsi və öz evindən-obasından didərgin düşmüş keçmiş məcburi köçkünlərə vurulmuş mənəvi ekoloji ziyan nəticəsində ölkəmizə təxmini hesablamalara görə, 31,72 milyard manat məbləğində ziyan dəyib.

Ümumilikdə Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan ordusunun əsgərləri tərəfindən qəsdən törədilmiş yanğınlar nəticəsində 96 min hektar otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri yanaraq məhv olub, torpağın üst münbit qatı yararsız hala düşüb.

21 Mart həm də Beynəlxalq Meşələr Günüdür. İşğal olunmuş ərazilərdə erməni vandallarının canlı təbiətə və bəşəriyyətə qarşı yönəlmiş əməlləri barədə respublika Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Avropa Vəhşi Təbiətin və Təbii Ətraf Mühitin Mühafizəsi üzrə Bern Konvensiyasının baş katibinə, Biomüxtəliflik üzrə Konvensiyanın icraçı katibinə, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyinə, Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi üzrə Beynəlxalq Birliyin prezidentinə rəsmi müraciətlər edilib və bu istiqamətdə təxirəsalınmaz tədbirlərin görülməsinin zəruriliyi beynəlxalq təşkilatların diqqətinə çatdırılıb.

Azərbaycan təbiətinin füsunkarlığı, həm də yaşıl ormanlarının əsl istirahət guşəsi olması ona daha çox diqqət və qayğı göstərilməsini tələb edir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***



# Prezident gənclərə stimul verdi

## İlham Əliyevlə görüş idmançıları daha böyük qələbələr qazanmağa ruhlandırdı

*Əvvəli 1-ci səh.*

Belə yarışlardan birində - Bolqarıstanın Plovdiv şəhərində 23 yaşadək güləşçilərin Avropa çempionatında idmançılarımız möhtəşəm uğura imza atıblar. Ümumilikdə 16 (7 qızıl, 2 gümüş, 7 bürünc) medal qazanıblar. Bu nəticə həm medalların sayına, həm də əyarına görə U-23 Avropa çempionatları tarixində Azərbaycan güləşində rekord göstəricidir. Yarışa cəmi 6 idmançı ilə qatılan yunan-Roma güləşi üzrə yığmamızın 5 üzvü fəxri kürsüyə qalxıb. Nihat Məmmədli (60 kq) və Xasay Həsənli (77 kq) qızıl, Ziya Babaşov (63 kq) gümüş, Laçın Vəliyev (87 kq) və Sərxan Məmmədov (130 kq) isə bürünc medal qazanıblar. Millimiz 102 xalla komanda hesabında Avropada ilk üçlükdə olub.

Qadınlardan ibarət komandamız da qitə birinciliyində 6 idmançı ilə təmsil olunub. Onlardan 4-ü Vətənə medalla qayıdıb. Jalə Əliyeva (62 kq) Avropa çempionu adına yiyələnib. Elnurə Məmmədova (55 kq) ikinci, Gültəkin Şirinova (53 kq) və Nigar Mirzəzadə (68 kq) isə bürünc medal qazanıblar. Yığmamız 93 xalla komanda hesabında ilk "5-liy"i qapayıb.

Plovdivə 9 idmançı ilə yollanan sərbəst güləş üzrə millimizin 7 üzvü uğurlu çıxışı ilə yadda qalıb. Ziyəddin Bayramov (65 kq), Cəbrayıl Hacıyev (74 kq), Abubakr Abakarov (86 kq) və İslam İlyasov (97 kq) bütün rəqiblərinə qalib gəldisə, Tofiq Əliyev (57 kq), Əşrəf Aşırov (79 kq) və Aydın Əhmədov (125 kq) fəxri kürsünün üçüncü pilləsində qərarlaşdı. Yığmamız komanda hesabında Avropa çempionu olub.

Bu günlərdə Prezident İlham Əliyev 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa Çempionatının iştirakçılarını qəbul edib. Dövlət başçısı qeyd edib ki, Avropa Çempionatında gənc güləşçilərimiz ölkəmizi ləyaqətlə təmsil edərək böyük uğura imza atdılar. Azərbaycan idman dövlətidir və həm böyüklər, həm gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda bizim idmançılarımız öz gücünü, dövlətimizin qüdrətini nümayiş etdirirlər: *"İdmanın bütün növlərində, o cümlədən güləş idman növündə ildən-ilə rəqabət artır, müxtəlif ölkələrdə güclü idmançılar üzə çıxır və artan rəqabət şəraitində Avropada birinci olmaq, əlbəttə, böyük nailiyyətdir. Dövlət Himnimiz yeddi dəfə səsləndirildi. Əlbəttə ki, həm idmançılar, həm idman mütəxəssisləri, bütün Azərbaycan vətəndaşları bu qələbəni böyük qürur hissi ilə qarşılayıblar Əlbəttə, güləşin ənənələri Azərbaycanda kifayət qədər güclüdür və şadam ki, indi gənc nəsil bu ənənələri davam etdirir".*

Onu da qeyd edək ki, son illərə nəzər yetirdikdə şahidi olurduq ki, ölkəmizdə güləş idman növündə lazımsız arxayınçılıq yaranmışdı. Bunun nəticəsini Tokio Olimpiadasında pəhləvanlarımızın medal göstəricilərində aydın gördük. Rio Olimpiadasında ölkəmizin aktivinə 9 medal yazdıran güləşçilərimiz Yaponiyada 3 mükafatla kifayətləndilər. Bu problemlərlə bağlı Prezident İlham Əliyev iradlarını bildirdi, problemləri göstərdi. Qeyd edək ki, Azərbaycan Güləş Federasiyasında rəhbər dəyişikliyi nəticəsində struktur, məşqçi və yığma komandaların yenidən təşkili sürətlə gedir. Federasiya daxilində, məşqçilər korpusunda hər kəs öz vəzifəsini, məsuliyyətini dəqiq bilir, buna uyğun da fəaliyyət göstərməyə başlayıb. Prezident İlham Əliyev bildirdi ki, Güləş Federasiyasında gedən proseslər narahatlıq doğururdu və durğunluq hiss olunurdu: *"Güləş Federasiyasında idarəetmə mexanizmi zəifləmişdi, faktiki olaraq özbaşınalıq hökm sürürdü. Əlbəttə ki, bu, nəticələrə də mənfi təsir göstərmişdir və bu, təbiidir. Ona görə Güləş Federasiyasının rəhbərliyinin dəyişdirilməsi zəruri idi, bu, baş verdi. Əminəm ki, federasiya indi həm buraxılmış bütün nöqsanları aradan qaldıracaq, vəziyyəti təhlil edəcək, - mənə məlumat verilib ki, artıq bu işlərə start verilib, - əlbəttə ki, idmançılara - həm gənclər, həm də böyüklər arasında çıxış edən idmançılara lazımi şərait yaradacaqdır".*

Bu günün idmançıları beynəlxalq yarışlarda qalib gəlmiş müzəffər xalqı təmsil edirlər. Beynəlxalq yarışlarda iştirak edən bütün idmançıların ürəyində bu duyğular mütləq olmalıdır. Təkcə Azərbaycan vətəndaşları yox, bütün dünya azərbaycanlıları bu gün özlərini əmin hiss edirlər, yaşadıqları ölkələrdə Azərbaycan həqiqətlərini çatdıraraq İkinci Qarabağ müharibəsi haqqında qürur hissi ilə danışırlar.

Vətən müharibəsindən sonra işğaldan azad edilən ərazilərdə zəruri infrastrukturun yaradılması indi ən müxtəlif istiqamətləri əhatə edir. Bu yerlər üçün hazırlanan və artıq bəzilərinin, konkret halda Ağdamın təqdimatı olan baş planından belə bəlli olur ki, azad olunmuş ərazilərdə ən müasir tələblərə cavab verən idman infrastrukturunun qurulması da əsas diqqət mərkəzində yer alır. İndi yeni olimpiya idman komplekslərinin, digər idman müəssisələrinin inşa olunacağı əsas məkanlardan biri məhz işğaldan azad edilən ərazilər olacaq. Prezident İlham Əliyevin birbaşa diqqəti nəticəsində bu ərazilərdə idmanın inkişafına yeni təkan verən maddi-texniki bazasının yaradılması və möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına imkan verən infrastrukturun qurulması bu sahənin inkişafına mühüm töhfə verəcək. Güləşdən cüdoya, şahmatdan tutmuş müxtəlif digər intellektual və komanda oyunlarına qədər, eləcə də bir çox digər idman növlərində Azərbaycanı layiqincə təmsil edəcək idmançılar nəsli artıq azad olunmuş ərazilərdə də yetişəcək. Bu nəsil Azərbaycanın idman ölkəsi kimi bütün dünyada layiqli yerini daha da möhkəmləndirəcək, onun nüfuzunu daha da yüksəldəcək, üçrəngli bayrağını yeni zirvələrə ucaldacaq. Dövlət başçısı bildirib ki, biz Qarabağı düşməndən azad edən, o torpaqlarda həyat yaradan, quran xalqıq: *"Əlbəttə ki, azad edilmiş torpaqlarda idman inkişaf etməlidir. Biz indidən bu işlərlə məşğul oluruq. Stadionlar, idman kompleksləri və digər idman qurğuları şəhərlərin, azad edilmiş bütün şəhərlərin Baş planlarında da öz əksini tapır. İndidən federasiyalar, Gənclər və İdman Nazirliyi artıq layihələri təqdim etməlidir. Çünki şəhərlərin Baş planlarında idman qurğularının yerləşməsi nəzərdə tutulur".*

Beləliklə, Bolqarıstandan böyük qələbə ilə qayıdan gənc güləşçilərimiz ölkənin idman tarixinə növbəti şanlı səhifə yazdılar. Qarşıda idmançılarımızı bir-birindən mötəbər yarışlar gözləyir. İnanırıq ki, idmançılarımız bu mötəbər tədbirdə də uğurlu çıxışları ilə xalqımızı sevindirəcəklər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Bakıda Novruz bayramı münasibətilə velosiped yürüşü keçirilib







Martın 19-da Bakı Şəhər İcra Hakimiyyətinin Nəqliyyat Agentliyi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi, Azərbaycan Velosiped İdmanı Federasiyasının birgə təşkilatçılığı ilə paytaxtın mərkəzində velosiped yarışı keçirilib.

AZƏRTAC xəbər verir ki, Novruz bayramı və paytaxtda yeni velosiped zolağının istifadəyə verilməsi münasibətilə təşkil olunan yürüşdə 30 həvəskar velosipedçi iştirak edib.

Turnirin təşkilində əsas məqsəd insanlar arasında ekoloji təmiz nəqliyyat növlərindən istifadənin təbliği, vətəndaşların idmanın bu növünə marağının artırılması, onların aktiv həyata cəlb edilməsi olub.

Veloyürüşün qalibləri dörd nominasiya üzrə qiymətli hədiyyələr, bütün iştirakçılar isə sertifikatlarla mükafatlandırılıblar.

Qeyd edək ki, son illərdə həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri nəticəsində Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Şəhərdə digər sahələrlə yanaşı, yol infrastrukturunun yenilənməsi, burada alternativ hərəkət vasitələrinin artırılması istiqamətində dövlət başçısının tapşırıqlarının icrası ilə bağlı yeni velosiped yollarının salınması istiqamətində işlər davam edir. Bununla əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinin Nəqliyyat Agentliyi tərəfindən bir sıra mərkəzi küçələrdə velosiped zolaqlarının salınması işləri həyata keçirilir. Bu istiqamətdə işlərin başlanğıcı kimi paytaxtın mərkəzində - Üzeyir Hacıbəyov, Puşkin, Rəşid Behbudov küçələrində yeni velosiped yolu salınıb. Artıq şəhərin mərkəzini əhatə edən 7,5 kilometr uzunluğunda velosiped yolunun 1,6 kilometri yekunlaşıb.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Avropa Parlamentinə etiraz bəyanatı göndərib

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Avropa Parlamenti tərəfindən cari ilin mart ayının 10-da qəbul edilən qətnaməyə etiraz olaraq bəyanat qəbul edib və həmin sənəd Avropa Parlamentinə göndərilib.

AZƏRTAC xəbər verir ki, bəyanatda sözügedən qətnamə Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazi bütövlüyü və suverenliyinin şübhə altına alınmasına, aqressiv separatizmin açıq şəkildə dəstəklənməsinə, o cümlədən azad edilmiş ərazilərdə Azərbaycana məxsus tarixi, dini-mədəni irsin erməniləşdirilməsinə hüquqi don geyindirilməsi cəhdlərinə yönəlik addım kimi şiddətlə qınanılıb və qərəzli hesab edilib.

Sənədin erməni lobbi qruplarının təsiri altında hazırlandığı bildirilərək onun real vəziyyəti göstərmədiyini, Azərbaycan tərəfinin tarixi-dini, o cümlədən qəbirüstü abidələrə olan həqiqi münasibəti fonunda ermənilərin saxta iddialarını özündə əks etdirdiyi təəssüflə vurğulanıb.

Eyni zamanda, bildirilib ki, qətnamədə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində "erməni" abidələri heç bir fakta söykənməyən rəqəmlərlə göstərildiyi halda, Azərbaycana məxsus tarixi-dini abidələrin aqibətinə göz yumulur. Belə ki, azad edilən ərazilərdə (67 məsciddən 65-i dağıdılıb, Ağdam Cümə məscidi hərbi məqsəd naminə qismən salamat saxlanılıb, Şuşadakı Yuxarı Gövhər ağa məscidi isə təmir adı altında saxtalaşdırılaraq fars məscidi kimi təqdim edilib) və bugünkü Ermənistan ərazisində qarşı tərəfdən azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımın həyata keçirilməsi, Azərbaycan toponimlərinin erməniləşdirilməsi, yüzlərlə tarixi-mədəni abidələrlə bərabər, məscid, ziyarətgahların dağıdılması və heyvanlar saxlanılmaqla dini dəyərlərin təhqir edilməsi, həmçinin ölkəmizin xristianlığa aid irsinin - Azərbaycan Respublikasının alban-udi Xristian dini icmasının varisi olduğu Qafqaz Albaniyasının Alban Apostol kilsəsinin, eləcə də pravoslav xristian məbədlərinin saxtalaşdırılaraq qriqoryanlaşdırılması və ya məhv edilməsi faktı məqsədli şəkildə göstərilmir. Ümumiyyətlə, Azərbaycanın dini-mədəni irsinin məruz qaldığı vandalizm aktları barədə heç bir qeydə rast gəlmək mümkün deyil.

Dövlət komitəsinin bəyanatında işğal dövründə erməni vandalları tərəfindən ümumilikdə təqribən 900-dən çox qəbiristanlığın tamamilə dağıdılaraq yerləyeksan edilməsinə, qəbir daşlarının sındırılmasına, məzarların qazılaraq cəsədlərin çıxarılmasına, təhqir olunmasına, qəbirüstü abidələrin talan edilməsinə, Azərbaycan vətəndaşlarının 30 il ərzində öz yaxınlarının məzarlarını ziyarətdən məhrum edilməsinə diqqət yönəldilib.

Etiraz bəyanatında 44 günlük Vətən müharibəsi müddətində Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşmənin mülki obyektlərinə, habelə dini təyinatlı binalara hər hansı hücum əməliyyatı həyata keçirilməməsi xarici jurnalistlərin belə dəfələrlə təsdiqlədiyi fakt kimi bir daha diqqətə çatdırılıb. Hərbi əməliyyatlar bitdikdən dərhal sonra Azərbaycan hökuməti tərəfindən azad olunmuş ərazilərdə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış bütün dini abidələrin bərpa edilməsinin bəyan edilməsi, həmin ərazilərin sosial-iqtisadi inkişaf planının hazırlanması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən, "Böyük qayıdış" proqramı əsasında bərpa prosesinin başlandığı öz əksini tapıb. Habelə Azərbaycan tərəfindən bütün ölkə miqyasında olduğu kimi, Ermənistanın işğalından azad edilmiş ərazilərimizdəki tarixi-dini abidələrin Azərbaycan irsinə məxsusluğu və onların qorunmasının, Azərbaycan dövlətinin öhdəliyində olmasının müxtəlif kürsülərdən ən yüksək səviyyədə dəfələrlə bildirildiyi qeyd edilib.

Şuşada məscidlərlə yanaşı, iki kilsənin bərpası Azərbaycanın abidələrə qarşı fərq qoymaması, əksinə, müxtəlif mədəniyyətlərə və dinlərə hörmət nümayiş etdirməsi, bütün dini nümunələri milli-mənəvi dəyərlərinin bir parçası kimi qəbul etməsinin bariz göstəricisi kimi vurğulanıb.

Qeyd edilənlərlə bərabər, Azərbaycanın Ermənistandan fərqli olaraq, tarixi-mədəni irsinə dini və etnik zəmində ayrı-seçkilik etmədiyi və silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyası da daxil olmaqla, beynəlxalq konvensiyalar üzrə öhdəliklərinə sadiqliyi, qarşı tərəfin isə əksinə, Konvensiya ilə bərabər "Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt", "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyası və sair beynəlxalq norma və standartların tələblərini kobud surətdə pozduğu ifadə edilib.

Bəyanatda 2022-ci il fevral ayının 4-də Azərbaycan Respublikasının Prezidenti, Avropa İttifaqına (Aİ) sədrliyi qismində Fransa Prezidenti, Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş nazirinin iştirakı ilə videoformatda keçirilmiş görüşün nəticəsi olaraq UNESCO missiyasının Azərbaycana və Ermənistana göndərilməsinə dair razılıq ifadə edilməsi Ermənistan ərazisində Azərbaycan xalqına məxsus mədəni irsin vəziyyətinin öyrənilməsi zərurətinin təsdiqi olduğu bildirilib, Avropa Parlamentinin qəbul etdiyi qətnamədə nədənsə bu məsələyə, ümumiyyətlə, toxunulmaması təəssüflə qarşılanıb.

Sonda dövlət komitəsi Avropa Parlamentinin erməni mənbələrinə əsaslanan qərəzli məlumatlar yaymaq cəhdini bir daha şiddətlə qınayaraq sözügedən qurumu gələcəkdə obyektiv qətnamələrin qəbuluna çağırıb.

# Xalq yaradıcılığının tədqiqatçıları

## Şifahi xalq ədəbiyyatımızın toplanmasında böyük xidməti olan alim



Akademik Azad Nəbiyev 40 ildən artıq bir dövrdə şifahi xalq ədəbiyyatımızın toplanması, nəşri, tədqiqi və tədrisi məsələləri ilə məşğul olmuşdur.

Onun gördüyü işlərin coğrafiyası geniş və rəngarəng idi və bu, alimi yaxından tanıyanlar arasında heyrət doğururdu. O, elləri, obaları gəzir, yazıya alınmamış neçə-neçə nəğməni, nağılı, dastanı axtarıb tapır, işləyib hazırlayır, müxtəlif tədqiqat əsərlərində araşdırmalara cəlb edirdi. Məsələn, alim Şirvandan "Koroğlu" dastanının yeni variantını yazıya koçürmüş, el nəğmələrini, xalq oyunlarını toplamış, Novruzun adət-ənənələri, çərşənbələri haqqında kitablar, dərsliklər çap etdirmişdir.

Görkəmli alim yaxşı bilirdi ki, xalq yaşadığı hər bir dövrün psixologiyasını, əxlaq və dünyagörüşünü həmin dövrdə yaratdığı ədəbiyyat nümunələrində əks etdirmişdir. Ona görə də ağız ədəbiyyatını nəşrə hazırlayıb araşdırarkən onu məhdud qəliblərə salıb təmasda olduğu dünyagörüşlərdən təmizləməyi, onlardan kənarda tədris etməyi, bu ədəbiyyatın mahiyyətini, əhatə dairəsini, məzmununu və yaranma tarixini təhrif etməyi yolverilməz sayırdı. Bu ədəbiyyatı yalnız düzgün dövrləşdirmək, təsnif etməklə müxtəlif mərhələlərdə xalqımızın erkən məişət həyatı, yaşayışı, adət-ənənəsi barədə dürüst məlumat əldə etməyi lazım bilirdi. Yorulmaz alim bu elmi ehtiyacı ödəmək üçün gecəli-gündüzlü çalışırdı.

Azad Nəbiyevin yaradıcılığının əsas istiqamətlərindən biri də folklorumuzu həm də başqa dillərdə dünya oxucusuna təqdim etmək idi. Keçən əsrin 90-cı illərindən sonra bu missiya yeni məna və məzmun kəsb etdi. O, Azərbaycan folklorunun rus və türk dillərində yayılması və nəşrində sələfləri olan V.Bartoldun, Ə.Abidin, A.Baqrinin, H.Zeynallının, A.Lukovskinin, Ə.Vəkilovun, V.Qafarovun və digərlərinin işini davam etdirdi. Müəllif rus dilində "Azərbaycan mifləri, nağıl və əfsanələri", "Azərbaycan-özbək folklorunun qarşılıqlı əlaqəsi", "Azərbaycan folkloru" kitablarını nəşr etdirdi. Bunlar da başqa xalqların oxucularına şifahi ədəbiyyatımızla tanış olmaq imkanı yaradırdı. 1990-cı ildə alimin Azərbaycan-türkmən əlaqələrindən bəhs edən "Sərhəd bilməyən əlaqələr" monoqrafiyası Aşqabadda türkmən dilində nəşr olundu.

Həmin illərdə Azad Nəbiyev Azərbaycan folklorunun türk dili vasitəsilə yayılması işinə də qoşuldu. 1994-cü ildə "Azərbaycan ədəbiyyatı antologiyası"nın birinci cildi çapdan çıxdı. Bura daxil edilən qədim türk dastanlarından tutmuş şifahi xalq yaradıcılığımızın bir çox dəyərli nümunələrini alim özü toplamış, kitabı tərtib etmiş və ona ön söz yazmışdır. Bundan başqa, "Azərbaycan türk ədəbiyyatı", "İlaxır çərşənbələr", "Azərbaycanda Novruz" kitabları İstanbulda türk dilində işıq üzü görmüşdü.

Azad Nəbiyevin xarici ölkələrdə 25-dən artıq elmi əsəri nəşr olunmuşdur. Yeri gəlmişkən qeyd edək ki, ümumilikdə alimin elmi əsərlərinin sayı 350-dən çoxdur.

Şifahi sözümüzün erkən qaynaqları, yaranma dövrü və təkamülü, növ və janr törəməsi qanunauyğunluqları, şifahi söz formulası, onun erkən milli zəmini, etnogenetik inkişafın şifahi söz yaradıcılığına təsiri və sairə kimi məsələlər alimin filoloji fikir və təxəyyülünü daha çox məşğul edirdi. Əcdadlarımızın erkən bədii düşüncəsinin çoxcəhətliyi, onun ilkin bədii söz modelləri, süjet, motiv və obrazları, bunların ümumdünya mədəni düşüncəsinə təsiri, xüsusilə Novruz bayramından qarşılıqlı bəhrələnmə və əlaqə məsələləri alimə türk etnosunun mənşəyini, təkamülünü və bugünkü Azərbaycan ərazisində məskunlaşma tarixinin ayrı-ayrı məqamlarını açıqlamaqda, ümumilikdə ulularımızın düşüncəsinin məhsulu olan şifahi sözü araşdırmaqda dəstək olurdu.

A.Nəbiyev "Kitabi-Dədə Qorqud"un 1300 illiyi ilə bağlı dəyərli silsilə məqalələr yazmışdır. Onun Drezden variantını hazırlayıb nəşr etdirmişdir.

Alim hər bir janrın ümumi spesifik xüsusiyyətlərini nəzərə alaraq onun yaranma dövrünü şərti olaraq müəyyənləşdirmiş və həmin prinsip əsasında xalq ədəbiyyatının dövrləşdirilməsinə təşəbbüs göstərmişdir. Bu isə ümumilikdə ağız ədəbiyyatımızın təkamülü tarixini xronoloji ardıcıllıqla izləməyə, hər bir janrın özündə yaranma dövrünə məxsus erkən düşüncə ilə bağlı müşahidələr aparmağa imkan vermişdir. Beləliklə, Azərbaycan xalq ədəbiyyatını bütöv şəkildə öyrənmək sahəsində təşəbbüsü də Azad müəllim irəli sürmüşdür. Təbii ki, gələcəkdə o, daha da təkmilləşdirilib yenidən işlənəcəkdir.

Professor Paşa Əfəndiyev həmkarının axtarış və tədqiqatlarını, onların nəticələrini yüksək qiymətləndirir, yaradıcılıq məziyyətlərini belə səciyyələndirir: "Azad Nəbiyev xalqımızın adət-ənənə, mərasim və bayramlarını, qəhrəmanlıq eposumuzu, nağıl-əfsanə və miflərimizi ardıcıl şəkildə toplayıb nəşr edən, onları öz tədqiqatlarında ümumtürk mədəniyyətinin tərkib hissəsi kimi götürüb araşdıran ciddi folklorşünasdır..."

Akademikin "Azərbaycan xalq ədəbiyyatı" dərsliyi xüsusi əhəmiyyət kəsb edir. Əvvələ qeyd edək ki, iki cilddən ibarət olan bu nəşr təkcə müəllim və tələbələr üçün deyil, geniş oxucu kütləsi üçün də çox maraqlıdır. 2002-ci ildə çıxan kitabın birinci hissəsində müəllif folklor və folklorun nəzəri irsi barədə geniş məlumat verir. Bundan sonra "Qədim dövr ədəbiyyatı" adı altında ən qədim zamanlardan XIII əsrə qədərki folklor yaradıcılığından bəhs edir.

İkinci hissədə müəllif XIII-XVII əsrləri əhatə edən orta əsrlər və XVIII-XX yüzilliklərdə yaranıb formalaşan ağız ədəbiyyatını təhlilə cəlb edir.

Azad müəllim 1999-cu ildə V.Xuluflunun 1929-cu ildə çap etdirdiyi "Koroğlu" nəşrini təzələyir.

2011-ci ildə alimin "Folklorda fasiləsiz transfer və yuxu paradiqmaları" adlı yeni kitabı nəşr olunur. Burada professor folklorun genezisi ilə bağlı XIX yüzillikdə Avropa alimlərinin irəli sürdüyü bir sıra nəzəri mülahizələri müxtəsər xülasə edərək belə bir qənaətə gəlir ki, şifahi yaradıcılıq ibtidai insanın əmək vərdişlərinə yiyələnməzdən əvvəlki mərhələdə, instinktiv düşüncədən şüurlu fəaliyyətə keçid dövründə psixoloji dərketmə hal və məqamları ilə bağlı meydana çıxmışdır. Müəllifə görə, psixoloji dərketmə sayəsində yaranan erkən folklor paradiqmaları - gözəgörünmə, qarabasma, eymənmə, gözdəymə, ürəyədamma, eləcə də ruh və yuxu - röya bədii düşüncə məhsulu olub, kollektiv yaradıcılıq prosesindən çox əvvəlki folklor hadisəsidir. Bundan başqa, alim bu kitabda çoxillik axtarışlarına əsaslanaraq ictimai fikir qaynaqlarına münasibət bildirir.

A.Nəbiyev 67 yaşında dünyasını dəyişdi.

O, həyatını xalqın əsrlərlə yaratdığı ölməz irsə - şifahi xalq ədəbiyyatına həsr etmişdi. Obrazlı desək, özü də dərin tədqiqatları və qələmə aldığı yazıları ilə sanki bu əvəzsiz irsə qovuşmuşdu.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Gəncədə Çanaqqala şəhidlərinin və "İstiqlal marşı"nın müəllifi Mehmet Akif Ərsoyun xatirəsi anılıb





Türkiyənin Gəncədəki Baş Konsulluğunda keçirilən anım tədbirində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürk, Milli Məclisin deputatı Pərvin Kərimzadə, AMEA-nın Gəncə Bölməsinin sədri akademik Fuad Əliyev, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru professor İbrahim Cəfərov və ictimaiyyət nümayəndələri iştirak ediblər.





Əvvəlcə Çanaqqala şəhidlərinin ruhu birdəqiqəlik sükutla yad edilib, Türkiyə Cümhuriyyətinin dövlət rəmzi - "İstiqlal marşı" səsləndirilib, şəhidlərin ruhuna dualar oxunub.

Anım mərasimində çıxış edən Zeki Öztürk Vətən uğrunda canından keçən türk və Azərbaycan şəhidlərini yad edib, istiqlal naminə verilən mübarizələrdən danışıb, qazanılan zəfərlərin əbədi olmasını diləyib. Çanaqqala zəfərindən söz açan konsul bu tarixi hadisədən ilhamlanaraq "İstiqlal marşı"nı qələmə alan dahi şair Mehmet Akif Ərsoyu hörmət və sevgi ilə yada salıb.

Niyazi Bayramov bildirib ki, Çanaqqala döyüşü Osmanlı dövlətinin möhtəşəm qələbəsi kimi tarixə düşüb və türk xalqının mübarizlik simvolu kimi əbədiləşib. Şəhər rəhbəri Çanaqqala zəfərinin Türkiyədə olduğu kimi, Azərbaycanda da böyük qürurla qeyd edildiyini vurğulayıb. Bu hadisənin əsl qardaşlıq nümunəsi olduğunu deyən Niyazi Bayramov Vətənin azadlığı uğrunda canından keçən bütün şəhidlərə Allahdan rəhmət diləyib.

Tədbirdə iştirak edən qonaqlar Çanaqqala döyüşündən bəhs edərək bildiriblər ki, bu döyüş türk əsgərlərinin göstərdikləri mərdlik və cəsarətin rəmzidir. Qeyd olunub ki, Çanaqqala döyüşü türkün zəfər dastanı olaraq tarixdə əbədi qalacaqdır.

Sonra Gəncə Uşaq Evinin sakinləri Mehmet Akif Ersoyun müəllifi olduğu "İstiqlal marşı" şeirini səsləndiriblər.

Tədbirin sonunda Mehmet Akif Ərsoyun həyatından bəhs edən sənədli film, Çanaqqala döyüşü və Çanaqqala şəhidlərinə həsr edilən videoçarx nümayiş etdirilib.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***




# Lənkəranda şəhid ailələri üçün Novruz tədbiri keçirilib

Lənkəran şəhərində Novruz bayramı ilə əlaqədar şəhidlərə həsr olunmuş ümumrayon tədbiri keçirilib.







Əvvəl icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid anaları və doğmaları, Vətən müharibəsi qaziləri və ictimaiyyət nümayəndələri "Şəhidlər" xatirə abidə kompleksini ziyarət edərək əbədi məşəlin önünə tər çiçəklər düzüblər. Vətən uğrunda canından keçmiş şəhidlərin ruhuna ehtiram ifadə olunub.

Sonra rayonun Gərmətük qəsəbəsindəki sarayda şəhid ailə üzvləri, Qarabağ və Vətən müharibəsi qaziləri üçün bayram tədbiri keçirilib. Əvvəlcə birdəqiqəlik sükutla şəhidlərin xatirəsi anılıb. ŞİH-in başçısı Taleh Qaraşov tədbir iştirakçılarını Novruz bayramı münasibətilə təbrik edərək onlara xoş arzularını çatdırıb. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fədakar səyləri sayəsində UNESCO tərəfindən xalqımızın milli bayramı kimi bəşəriyyətin qeyri-maddi irs siyahısına daxil edilmiş Novruz bayramının milli-mənəvi dəyərlərimizin ən gözəl nümunələrindən olduğunu qeyd edən T.Qaraşov 44 günlük Vətən müharibəsində müzəffər Ordumuzun Ali Baş Komandanı, Prezident İlham Əliyevin mahir sərkərdəliyi ilə düşmən üzərində qazandığımız tarixi zəfərdən sonra bu bayramı daha şux, alnıaçıq və böyük sevinc hissi ilə keçirdiyimizi diqqətə çatdırıb.

Tədbirdə çıxış edən şəhid valideynləri, onların doğmaları və qazilər onlara göstərilən davamlı diqqətə və şəhidlərin Vətən qarşısındakı xidmətlərinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya səmimi təşəkkürlərini ünvanlayıblar.

C.Cabbarlı adına Lənkəran şəhər 1 saylı uşaq musiqi məktəbinin müəllim və şagirdlərinin ifasında konsertlə müşayiət olunan tədbirdə xalq musiqisi fonunda vətənpərvərlik mövzusunda və şəhidlərlə bağlı mahnılar səsləndirilib, şeirlər oxunub.

***Ağaddin BABAYEV,***
***"Lənkəran" qəzetinin əməkdaşı***

# DSX-nin "Sərhədçi" Mədəniyyət Mərkəzində Novruz bayramı münasibətilə tədbir keçirilib










Dövlət Sərhəd Xidmətinin (DSX) "Sərhədçi" Mədəniyyət Mərkəzində xalqımızın ən qədim və əziz bayramlarından olan Novruz bayramı münasibətilə tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə "Sərhədçi" Mədəniyyət Mərkəzində fəaliyyət göstərən rəsm dərnəyinin şagirdlərinin əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Sonra "Sərhədçi" Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi tərəfindən hazırlanmış konsert proqramı təqdim edilib.

Dövlət Sərhəd Xidmətinin nümunəvi hərbi orkestri, "NUR" vokal-instrumental ansamblının solistləri Azərbaycan və əcnəbi bəstəkarların musiqi əsərlərini, xalq mahnılarını ifa edib, mədəniyyət mərkəzinin rəqs qrupu milli rəqslərimizdən ibarət maraqlı repertuarla çıxış edib.

Bayram tədbirində Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev çıxış edərək baharın gəlişini, ana təbiətin oyanışını təcəssüm etdirən, xalqımızın minilliklər boyu qoruyub saxladığı milli-mənəvi dəyərləri özündə əks etdirən Novruz bayramı münasibətilə şəxsi heyətə təbriklərini çatdırıb, onlara xidmətlərində və şəxsi həyatlarında yeni-yeni uğurlar arzulayıb.

Çıxışda Azərbaycan tarixinin ən böyük sərkərdəsi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin komandanlığı altında bütövləşmiş yurdumuzun hər guşəsinə şanlı qələbəmizin əbədi bahar gətirdiyi, xalqımızın bu əziz bayramı zəfər ovqatı ilə qeyd etdiyi vurğulanıb. Ölkəmizin bütün ərazisində suveren hüquqlarımızın bərpa edildiyi, qalib dövlətə çevrildiyimiz müqəddəs haqq savaşında Müzəffər Ali Baş Komandanımız tərəfindən Dövlət Sərhəd Xidmətinin qarşısında qoyulmuş döyüş tapşırıqlarının layiqincə icra olunduğu, bu gün Azərbaycan sərhədçilərinin azad edilmiş torpaqlarımızda dövlət sərhədlərimizin keşiyində mətin dayandığı və bundan sonra da milli maraqlarımızın təmin olunması üzrə bütün tapşırıqları ən yüksək səviyyədə yerinə yetirəcəkləri bildirilib.

Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev "Sərhədçi" Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi ilə görüşüb, onlara fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzulayıb.

***"Azərbaycan"***




● Novruz adətləri

# Azsaylı xalqlar bahar bayramına yeni rəng qatırlar



**Respublikamızın hər yerində millətindən asılı olmayaraq insanlar Novruzu həvəslə qeyd edirlər. Multikultural dəyərlərə söykənən ölkəmizdə yaşayan bütün xalqlar el bayramını müxtəlif adətlərlə qarşılayır, lakin onların hamısı Azərbaycan ənənələrindən qidalanırlar. Şimal bölgəsində azsaylı xalqların çoxluğu isə bu bayram adətlərini daha da rəngarəng edir.**

**Qubanın bahar mənzərəsi çox maraqlıdır. Burada yaşayan 160 minə yaxın əhalinin tərkibində azsaylı xalqların, etnik qrupların nümayəndələri də var. Hazırda Qubada 20 minə yaxın tat və ləzgi, 2 mindən çox mesxeti türkü, 4 mindən çox xınalıqlı, 3500 buduqlu, 2000 qırızlı, 1000 rus, tatar, gürcü, ukraynalı, belarus, 4 minə yaxın yəhudi yaşayır.**

Bu azlıqlar burada bir ocaq başına yığışmış mehriban ailəni xatırladır. Qubada Novruz şənliklərinin hərarəti meydanlarda, küçələrdə çatılan bayram tonqallarının istisinə qarışır. Novruzlu Quba bir az da bayram xonçasını xatırladır. Hər kəs bu xonçaya bir rəng qatır. Öz adətinin, mətbəxinin, inanc və sınamasının bir nemətini-naxışını qoyur. Qubada deyərlər ki, bahar özünü yetirincə yeddi dəfə çölün-düzün, bağın-bostanın yaşıl nemətinin göy qutabını yemədinsə... onda heç nə. Demək, sənin bahardan xəbərin də yoxdur. Səməni umacı, halvası çalıb, qapı-qonşuya, qohuma-yada paylamadınsa, bu nə Novruz qarşılamaq oldu?..

Axır çərşənbədə sübhün gözü aralanmamış çay kənarına gedər, axar su üstündən keçər, yuyunarlar. Evdəki bütün qab-qacağı çərşənbə suyu ilə doldurarlar. Həmin sudan saxlayıb, əkin vaxtı bağa-bostana çiləyərlər ki, cari ildə məhsul bol ruzulu olsun. Sonra azar-bezardan, ağırlıqdan xilas olmaq niyyəti ilə evin kişiləri ailə üzvlərinin sayına görə heyva budağı kəsər, qırmızı parçadan kəsib ağaca, dirəyə bənd edərlər ki, qara yaz qonmasın çöhrələrə...

Bayram axşamı az qala hər məhəllədə çalıb-oynayan cavanlar, xoruz döyüşdürən uşaqlar, Keçəl-Kosa cütlüyü də bir ayrı cür rəng qatırlar şənlik iştirakçılarının ovqatına. Nügədi kəndində cavanlar yaxındakı Bəhyə dağına qalxar, əvvəlcədən hazırladıqları iri bayram şamlarını ən yüksəkdə yandırmaqda bəhsə girərlər.

Quba mətbəxinin ən ləziz yeməkləri, ən lətif şirniyyatı, qax-qoz, löyün-löyün çərəzlə dolu xonçalar düzülər süfrəyə.

Xınalıqlılar axır çərşənbədə oğlan evindən nişanlı qız evinə yeddi pay göndərərlər. Sevgi, sağlamlıq, ruzi, bərəkət, mehribançılıq, sədaqət və övlad rəmzlərini xatırladan bu yeddi rəmz gələcək ailəyə dilənən arzulardır.

Qubanın Qırmızı qəsəbəsində yaşayan yəhudilər də Novruz bayramını eyni coşqu ilə qarşılayırlar. Bayram günü əhalinin böyük hissəsi eşiyə çıxır, bir-birinin yeni gününü təbrik edirlər. Axşam alovlanan tonqallar bu yaraşıqlı qəsəbəni nura bürüyür. Tonqal başına yığışan adamlara şəkərbura, paxlava, qoğal paylanır. Bu tonqalın başında etiqadından asılı olmayaraq hamı yanaşı dayanır. Şənlik tədbirləri gecə yarıdan keçənədək davam edir.

Qubada Novruz şənliklərinin sonunda, bayramın 13-cü günündə səmənatma mərasimi də keçirilir. Bu adətin deyilənə görə, təqribən yarım minillik yaşı var. Həmin gün əllərində səməni olan insanlar Qudyalçayın sahilinə gəlir, səmənini axar suya buraxır və niyyət edirlər. Niyyət edirlər ki, gələn Novruza arzuları çin olsun.

Şabran rayonunda bu bayramı əsrlərdən qoşalaşıb gələn adətlərlə qeyd edirlər. Burada yaşayan dağlı, ləzgi, mesxeti turkləri, tatlar bayramın keçirilməsinə martın əvvəllərindən başlayırlar. Kiçik çillə qurtaran kimi günaşırı qonşu və qohum ailələr bir yerə yığışar, öncədən çərşənbələrə hazırlıq görərlər. Simsar qohumlar arasında deyişmələr keçirər, bayatı deyib çalıb oynayarlar. Elə birinci çərşənbədə bir adam ayırarlar ki, evbaşı düşüb pul yığsın. Həmən yığılan pula buğda alarlar. Yaşca böyük olan ailələrdən birinin başçısı önə çıxıb həmin buğdanı eyni miqdarda ailələrin sayı qədər hissələrə bölər. Qadınlar evdən gətirdikləri boşqablarda səməni qoyarlar.

Su, Od, Yel və Torpaq çərşənbələrində camaat axşamlar bir yerə yığışar. İnanca görə, səhər oyanan Günəş öncə səməni ilə üzləşər və yerlərə onun yaşıllığı naminə daha isti havasını göndərər. Digər tərəfdən bərəkət rəmzi olan yaşıl ləçəklər evdə, obada, vətən torpağının hər tərəfində dolaşan pis ruhları qovar.

Bayram axşamının əvvəlinci günü siyahı hazırlayarlar. Həmin siyahıda imkansız ailələr, şəhid ailələri, hamilə qadınlar xüsusi olaraq nəzərə alınar. Daha sonrakı yerlərdə həyat yoldaşı səfərdə olanlar, övladları təhsil (ali) alanlar və yeni ailə quranlar yer alar. Kimin imkanı nəyə çatarsa, onu gətirəcəyinə söz verər. Bir də görürsən ki, onlarca ailənin dolanışığı üçün xeyli ərzaq yığılır. Bayramdan bir gün əvvəl hamı gücü çatanı gətirib siyahıda kim nəzərə alınıbsa, ona verər. Orada da hamının "payı"nı səliqə ilə qablaşdırarlar. Hamısının üstünə adlar yazılar, paylayacaq adamlar müəyyənləşər. Onlara bu işdə uşaqlar yaxından kömək edərlər. İlaxır çərşənbədə həmin "pay" siyahı ilə evlərə daşınar.

Tatlar Novruzu üç gün qeyd edir. Belə ki, martın 19-u günü səhər kəndin xanımları bir yerə yığışıb səməni horrasını bişirəni müəyyən edirlər. Bayram axşamı kənd camaatı evlərindəki səmənilərі gətirər həmin şəxsin həyətinə. Səliqə ilə onları masanın üstünə düzərlər. Daha sonra səmənilərі xüsusi qaydada hazırlanmış toxmacla qabların içində əzirlər. Daha sonra ocaq qalanar. İri qazanlarda qadınlar səməni horrasını bişirməyə başlayar. Döyülüb əzilmiş səməninin suyunu süzüb boşaldırlar həmin qazanlara. Qazan dolandan sonra onu ocağa qoyarlar.

Bişirmə "əməliyyatı" hardasa 12-14 saat çəkir. Bu vaxtın sonunadək bir nəfər əlində taxtadan hazırlanmış oxlovla onu qarışdırır. Dayanmadan bulanan səməninin suyuna yalnız un əlavə olunar. Sonda həmin qarışığı halva halına gətirirlər. 19 mart gecəsi bişməyə başlayan səməni horrası 20-si tezdən hazır olar. Günorta başlayanda kəndin camaatı həmin horra bişən məhəlləyə yığışar. Səməni horrasını paylamamışdan öncə bir kənd ağbirçəyi qazanın kənarına çağırılar. Həmin insan dua etməyə başlayar.

Amin sədaları hər tərəfi bürüyər. Uşaqlar əllərindəki dolu boşqablarla həyətlərə qaçaraq onu ev yiyələrinə verərlər. Sonra yenidən camaat bir yerə yığışar. Əvvəlcədən toplanan ərzaq, geyim çantalarda imkansız ailələrə paylanar. Axşama yaxın musiqi sədaları altında Dədə Qorqud, Keçəl və Kosa başlayırlar meydan sulamağa.

Şimal qapımız olan Qusar və Xaçmazda boz ay başlayandan bahara hazırlıq görülür. Böyüklü-kiçikli odun yığmağa başlayırlar. Hər məhlədə yığdıqları ağacları bir nəfərə tapşırdıqdan sonra öz aralarında Keçəli, Kosanı müəyyənləşdirirlər. Novruza ləzgi dilində "Yaransuvar" (Yeni gün) deyirlər.

Çərşənbə axşamlarından qabaq mis qaba su töküb saxlayırlar. Çərşənbə günlərində həmin su dolu qabı 7 evə aparırlar. Hərə o sudan istədiyi qədər içir. İnanca görə əgər su 7 nəfərə çatarsa, arzularının qərarlaşacağına inanırlar. Həmin 7 nəfər bir yerə yığılar, bir-birini təbrik edər, deyib, gülər, şənlənərlər. Qusarlılar yeyib-içməyi sevərlər. Həmin günlərdə onların evləri qonaqlı-qaralı olar.

Bayram axşamı tonqallar qalanar, millətindən asılı olmayaraq, hamı ocaq başına yığılar.

Qusarda icra edilən adətlərdən biri də Novruz axşamı yeni evə daxil olma, elçilik etmək kimi ənənələr diqqəti cəlb edir. Məhz bayram axşamı doğulan uşaqlara Novruz və Bahar ismini verərlər.

Adət və ənənələr bizə tariximizin bir hissəsinin yadigarıdır. Minillər öncə yaranan adətləri yaşatmaq hər birimizin borcudur. Birlik, bərabərlik, mənəvi dəyərlərə söykənən bahar millətindən asılı olmayaraq oda, suya, yelə və torpağa söykənərək Azərbaycana pənah gətirər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

● İlin əziz günləri

## Yaz günü - Novruz günü

Bu gün yaşıd olur gündüzlə gecə,
Dağa duman çöküb, çən yeridikcə,
Dərin dərələrdə sel daşan gündür
Uca zirvələrdə
Qar əridikcə.
Damlalar dəryaya qarışan gündür,
Bu gün yerin, göyün öz sevinci var.
Gözünü açdıqca günəşli bahar,
Sözlər şəfəqlərdən qamaşan gündür.
Uzaq üfüqdəki soyuq ulduzlar
Bu gün isti-isti sayrışan gündür.
Gəlin, salamlayaq doğma baharı
Ana yurdumuzun
Ana qolları
Baharın qoynuna sarışan gündür.
Odlar torpağının gur tonqalları
Yerin ürəyitək alışan gündür.
Çaylar arzu kimi aşıb-daşanda,
Həsrətli torpaqla yaz qovuşanda
Yer göyə
Göy yerə
Yaraşan gündür.
Təbiət sevgidən söhbət açanda,



Küsmüş sevgililər barışan gündür.
Durnalar vətənə dönür qürbətdən.
Üfüqlərin donu mavi xələtdən.
Köksündə günəşi
Zər nişan gündür.
Bu gündən, sabahdan, əbədiyyətdən
Mehriban-mehriban danışan gündür.

***Nəbi XƏZRİ,***
***Xalq şairi***

## Səməni, ay Səməni

Baharın şəfəqləri hələ qışı döyməyib,
zirvələr papağını Günə tərəf əyməyib,
hələ "Novruzgülləri" çöldə düymələnməyib;
sən gözəl, yamyaşılsan,
sən Allah, saxla məni,
Səməni, ay Səməni.

İlk baharım - Səməni, dünyanın yaşıl tacı,
otaqlara boylanıb ağaclar pıçıldadı,
şam yandırdıq; alov da qəlbini sənə açdı,
nurlanan şamlar kimi həyata bağla məni,
Səməni, ay Səməni.

Gözün aydın, Vətənim düşmənlərini yendi,
44-günlük savaşda
Zəfər topları dindi,
qış olsa da Şuşanın
havaları isindi;
Tanrıya tapşır yenə bu müqəddəs Vətəni,
Səməni, ay Səməni.

Səndən təmiz nə var ki, bu dəyişən dünyada,
insanları sevgidən uzaq düşən dünyada?
işığı-zülmətiylə hey.. döyüşən dünyada
salma qəribçiliyə millətimin bəxtini,
Səməni,ay Səməni.

Küləkdə ləngər vuran zəmilərə dön bu il,
torpağımı qoruyan səngərlərə dön bu il,
ruhun düşərli olsun,
uğur yetirsin hər il -
saxla Azərbaycanı,
hər il göyərdək səni,
SƏMƏNİ, AY SƏMƏNİ...

***Vahid ƏZİZ,***
***Xalq şairi***

● Zəfərdən sonrakı Novruz

# Eyni talenin daşıyıcıları...

### 30 ilə yaxın Novruz tonqalını qəlbində qalayanların yurdsuzluq yaraları zəfər məlhəmi ilə sağaldı

**Onlar, əslində, üç deyillər. Rəmzi olaraq üçünü seçdik - "atalar üçə kimi deyib". Ataların müdrik kəlamlarına pənah gətirən elə analarımız, bacılarımız, xalabibilərimiz var ki, ilboyu ailənin qayğılarını zərif çiyinlərində daşıyırlar.**

Seçdiyimiz üç qadından biri Kəlbəcər rayonunun Barmaq Binə kəndində 1938-ci ildə dünyaya göz açan, uşaqlıq və gənclik illərini yazda, yayda yaylaqda, qışda isə oylaqda keçirən Səmayə nənədir ki, ömür-gün yoldaşı Yəhya Mehtiyevlə böyük bir külfət saxlayıb.

Doğulduğu və gözəl növraqlı günlər keçirdiyi, ömür sürdüyü kənd Kəlbəcərlə Göyçə mahalının arasında sərhəddə idi. Ermənilər kəndə dəfələrlə basqın etsə də, oğlanları Mirzəli və məktəbyaşlı Seyfəli də atalarına qoşularaq, düşmən qarşısına çıxıb, 5 il mühasirədə qalan kəndi qoruyublar.

Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində müvəqqəti sığınacaq tapan, Kəlbəcərin işğal edildiyi 1993-cü ilin aprel günlərini xatirələrində, hələ də qurumayan göz yaşlarında saxlayan, fikrini yumaq kimi sarıyan Səmayə nənəyə Novruz bayramı günlərində baş çəkdik.

Nitqində xəstəliklə bağlı qüsur yaranan, Kəlbəcərinin işğaldan azad edildiyini eşidəndə "Mirzəlimin də qapısını aç, Allahım!" - deyə əllərini uca göylərə qaldırıb dilək diləyən ananın gözləri itkin oğlundan bir soraq almaq üçün hələ də yollara dikilidir. Lakin ata yurdunun azad edilməsi, orada doğmaların tonqal yandırması Səmayə nənənin sinə yarasına sanki məlhəm olub: "...Vallah, inanırdım ki, Qarabağımız, doğulduğum kənd qaytarılacaq, düşməndən alınacaq. Həm də unutmaq günah olar: 30 ilə yaxındır dövlətimiz, hökumətimiz bizim qaçqın-köçkün kimi hər qayğımızı çəkib. Qəsəbələr salıb, evlər tikib...

Dünyadakı qaçqınlara baxanda adamın ürəyi ağrıyır: kimsələri elə bil yoxdu. Var olsun bizim dövlətimizin başçısı ki, hər cür qayğımıza qalır. İndi də torpaqlarımızı işğaldan azad eləyib, orada yenidən şəhər-kənd salır, yollar çəkilir, tunellər açılır. İnşallah, biz də tezliklə o torpaqlara qayıdacağıq. Qoy torpaqlarımızı azad edən əsgər oğullarımız yandırsın Novruz tonqallarını. Qismət olsa, 30 ilə yaxındır sorağını ala bilmədiyim Mirzəlimin də xəbərini eşidərik... Çünki dövlətimizin başçısı indi bu məsələ ilə ciddi məşğuldur. Allah köməyi olsun! Anaların duası müqəddəs olur, inşallah, itkinlərimizdən də soraq alarıq. O gün uzaqda deyil..."

### "Yuxularımda həmişə oraları görürəm"



Kəlbəcərin sağ qolu Göyçə, solu isə Laçın idi. Dağları kimi, insanları da bir-birinə mənən dayaq, təbiətən, xaraktercə də oxşar olublar. Bu gün də elədirlər: dərdləri, nisgilləri, qayğıları, arzu-diləkləri qoşalaşıb: doğma yurdlara qayıtmaq, oralarda yenidən məskən salmaq, dərd-səri atmaq...

O yurdlardan uzaq düşənlərdən biri, ixtisasca Azərbaycan dili və ədəbiyyatı müəllimi olan Bəsirə Məmmədli ilə də bir başqa nisgillə qarşılaşdıq. Səmayə nənədən fərqli yaş, düşüncə, yurda bağlılığın başqa bir formasını duyduq. Bəsirə Zakir qızı Məmmədli 1975-ci ilin elə bu vədələrində Laçın rayonunda anadan olub.

Arzusu orta təhsil aldığı məktəbdə müəllimləri ilə çiyin-çiyinə çalışmaq olub. "Beş qönçə" və "Azərbaycan qadınları müstəqillik yollarında" kitablarının redaktoru olub. Mətbuatda hərbi-vətənpərvərlik mövzusunda onlarca məqaləsi dərc edilib. Məcburi Köçkün Qadınların Milli Şəbəkəsinin koordinatorudur: "...Yuxularımda həmişə oraları görürəm. Elə məktəbyaşlı Zəhra balam da nənəsi Vəzifə kimi Laçın həsrətlidir... Orta məktəbin sonuncu sinfində oxuyurdum. "Son zəng"ə, imtahanlara hazırlaşırdıq. Mayın 8-də Laçında sinif yoldaşlarım və müəllimlərimizlə birlikdə Böyük Vətən müharibəsi abidəsində abadlıq işləri aparırdıq. Bir də gördük Şuşa tərəfdən xeyli maşın və camaat gəlir. Oğlanlarımız maraqlandılar. Öyrəndilər ki, Şuşada vəziyyət ağırdır, əhali köçürülür. Əhvalımız pozuldu. Dayılarım, xalam uşaqları - pəhləvan Qaçayın övladları Şuşada döyüşdə idilər. Anam xəbərsiz qalmışdı. Hamı həyəcanlı idi. Axşamtərəfi ermənilər Gorus tərəfdən Laçını dəhşətli qrad atəşinə tutdular. Bir an göz açmaq mümkün deyildi. Səmada alazanın, qradın sayı-hesabı yox idi. O dəhşətli mənzərəni unuda bilmirəm...

### "...Əziz Şuşa, sən azadsan! Doğma Şuşa, biz gəlmişik!"

Lakin illər sonra Qarabağımız, o cümlədən Şuşamız, doğma Laçınımız da azad edildi. Ötən ilin Novruz bayramında Şuşada Novruz tonqalını Müzəffər Ali Baş Komandanımız yandırdı. Bunun rəmzi mənası vardı. Bu, o demək idi ki, "...Əziz Şuşa, sən azadsan! Doğma Şuşa, biz gəlmişik!" Əlbəttə, Laçında beynəlxalq hava limanının tikilməsinin də rəmzi və həm də siyasi-iqtisadi, hərbi nöqteyi-nəzərdən mənası var. Dağların sahibi yenə də qıy vuran qartallardır, min şükür! Buna görə döyüşən oğullarımıza, onları vətənpərvər ruhda yetişdirən xalqımıza və möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarıq! Novruz tonqalları yandırılan Qarabağımıza yeni həyat gəlir. Bu bahar torpağımıza ruzi-bərəkət gətirəcək, çünki Qarabağ öz sahiblərinin əlindədir..."

1976-cı ildə Xocalı şəhərində doğulan, 1 yaşına kimi orada yaşayan, "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyi Binəqədi rayon şöbəsinin rəhbəri, şəhid nəvəsi Ayna Novruzova dəhşətli günlərdən salamat çıxan uşaqlardandır. 90 yaşını haqlamış atası Allahyar müəllim 30 il Xocalı müsibətlərini yaddaşında və dərdli-nisgilli misralarında, Ayna xanım isə ictimai fəaliyyətində yeni nəslə çatdırıb, daha geniş auditoriyalarda təbliğ edib.

İllərlə "Xocalının səsi" qəzetinin redaktoru olmuş Allahyar Xocalı, imzasını vətənpərvər ruhlu yazıları ilə sevdirən el ağsaqqalı doğma yurda, təəssüf ki, qayıda bilmədi: ömür vəfa etmədi...

Bir vaxtlar Laçında dünyaya göz açıb Xocalıda ocağı qaralan, çırağı sönən Kübra nənə kimi gözüyaşlılara təsəlli, ümid verməyi özünün vətəndaşlıq borcu hesab edən Ayna Novruzova yolunu tez-tez bu qəsəbədən salır, doğmalarına baş çəkir. İllərdir ki, erməni vandallarının 26 fevralda törətdiyi vəhşiliyi, nəinki respublikamızda, qardaş Türkiyənin müxtəlif bölgələrində də "Xocalıya ədalət!" kampaniyasını necə apardıqları ilə bağlı onlara məlumat verir, hər kəsi bu işdə fəal təbliğatçı olmağa çağırır.

### "Biz Xocalıya da qayıdacağıq..."

"Xocalı Soyqırımını Tanıtma" ictimai birliyi yarananda o da könüllü olaraq təbliğatçı qrupun üzvlərindən birinə çevrilib. Adıçəkilən təşkilatın qadınlar şurasının sədri kimi daha bir ictimai vəzifənin öhdəsindən bacarıqla gələn Ayna Novruzova deyir ki, təbliğatın coğrafiyası genişləndikcə dünya erməni vandalizmi haqqında əsl həqiqəti öyrənir və onların antiinsani əməllərini lənətləyir. Bu illər ərzində nəinki Azərbaycanda, Almaniya, Türkiyə kimi böyük və nüfuzlu ölkələrdə də Xocalıya ədalət istəmişik.

Ayna Novruzovanın təsəllisi odur ki, Azərbycanın haqq səsi artıq eşidilir. Bu isə intizarın, həsrətin sonu deməkdir: "...Qarabağda separatizm baş qaldırandan Azərbaycan qadınlarının taleyinə ağrı-acı, gözyaşı yazıldı. Doğma yurdunu, balasını, ailəsinin başçısını, qardaş-bacısını... itirən anaların 30 ildir ki, yadına Novruz bayramı düşmürdü. Necə düşsün? Axı elə şəhid balaları oldu ki, onların doğum tarixi məhz Novruz günlərinə düşüb. Yaxud 8 Mart tarixində düşmən gülləsindən al-qana bələnən igidlərimiz az oldumu?! Xalqımız kimi, xoclılılar da doğma Qarabağımızın işğaldan azad edilməsi sevincini yaşayırlar. Ermənilər əmin olsunlar ki, "Dəmir yumruq" həmişə yerindədir. Bəd niyyətlərindən əl çəkməsələr, daha ağır itkilərlə üzləşəcəklər. Biz Xocalıya da qayıdacağıq ..."

Bu qadınların obrazında deyə bilərik ki, anaları cəmiyyətin parlaq siması adlandıranlar, ailənin isti ocağına bənzədənlər yanılmayıblar. Hansı evdə-ailədə qadın, ana, bacı nəfəsi varsa, ora ilin bütün fəsillərində bahar təravətli olur: səliqə-sahmanı ilə.

2020-ci ilin payızında igid oğullarımız Qarabağımızı düşmən tapdağından azad edib! Bu şərəfi yaşamaq haqqını qazananlar da qardaşı, nişanlısı, ömür-gün yoldaşı cəbhədə qəhrəmancasına döyüşüb Vətən uğrunda şəhid olmağı bacaran, qanını, canını bu yolda qoyub qaziyə çevrilən oğulların ana-bacılarıdır. Ona görə də onların Novruz bayramında daha çox sevinməyə, şadlanmağa haqqı var...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***










# Ağstafalılar Novruz bayramını böyük coşqu ilə qeyd etmişdir





Xalqımızın milli-mənəvi irsini təcəssüm etdirən Novruz bayramı münasibətilə Ağstafada ümumrayon tədbiri keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzmüşlər. Sonra ağstafalı yeniyetmə və gənclərin əl işlərindən ibarət sərgiyə baxış keçirilmiş, Novruzun rəmzləri olan Kosa və Keçəlin, Bahar qızın iştirakı ilə, eləcə də uşaqların təqdimatında xalqımızın qədim milli ənənələrinə həsr olunmuş şeir və mahnılardan ibarət kompozisiyalar nümayiş etdirilmişdir. Qol güləşçiləri və pəhləvanların nümunəvi çıxışları da böyük marağa səbəb olmuşdur. Tədbirdə rayonun incəsənət ustaları geniş konsert proqramı ilə çıxış etdikdən sonra bayram tonqalı alovlandırılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



# Sosial xidmət müəssisəsində Novruz şənliyi keçirilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin 1 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində Novruz şənliyi keçirilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov iştirakçıları bayram münasibətilə təbrik edib, xüsusi qayğıya ehtiyacı olan şəxslərin sosial təminatı, sosial xidmətlərlə əhatə olunması sahəsində aparılan işləri diqqətə çatdırıb.

V.Behbudov sağlamlıq imkanları məhdud uşaqlar və onların ailələrinə, ümumən xüsusi qayğıya ehtiyac duyan şəxslərə reabilitasiyayönümlü sosial xidmətlər göstərilməsi üçün icra olunan layihələri qeyd edib. Həmin layihələrin bu il daha da genişlənəcəyini vurğulayıb.

Qeyd edilib ki, agentlik bu il xüsusi qayğıya ehtiyac duyan şəxslərin reabilitasiyayönümlü sosial xidmətlərlə təminatı üzrə 150-dən çox layihə həyata keçirməyi nəzərdə tutur.

Tədbir sağlamlıq imkanları məhdud uşaqlar tərəfindən hazırlanan səhnəciklər, rəqslər və musiqili ədəbi-bədii kompozisiya ilə davam edib. Sosial Xidmətlər Agentliyinin sosial xidmət müəssisələrinin sakinlərinin və Bakı Xoreoqrafiya Akademiyasının yetirmələrinin şeir və rəqs nümunələri maraqla qarşılanıb.

Tədbirdə "Səmənilər yarışır" müsabiqəsinin nəticələri açıqlanıb. Əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzinin hazırladığı səməni nümunəsi birinci yerə layiq görülərək mükafatlandırılıb.







# Şirvanda Əməkdar bədən tərbiyəsi və idman xadimi Vaqif Gözəlovun 80 illik yubileyi qeyd olunub





Şirvan Şəhər Mədəniyyət Mərkəzində ömrünün 60 ilini idmanın inkişafına həsr etmiş, "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adına və "Tərəqqi" medalına layiq görülmüş məşqçi-müəllim Vaqif Gözəlovun 80 illik yubileyi qeyd olunub.



Yubiley tədbirində şəhər icra hakimiyyətinin, təhsil şöbəsinin, gənclər və idman idarəsinin, Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin və ictimaiyyətin nümayəndələri, incəsənət adamları iştirak ediblər. Bildirilmişdir ki, Vaqif Gözəlov Şirvan şəhərində boks idman növünün təməlini qoyub və ömrünün çox hissəsini idmanın bu növünə həsr edib. Onun yetirmələri respublika və dünya çempionatlarında mükafatlara layiq görülüblər.

Çıxışlardan sonra V.Gözəlovun həyat yolunu əks etdirən videoçarx nümayiş olunub, Şirvan Şəhər Musiqi Məktəbinin müəllim və şagirdlərinin ifasında musiqi nömrələri səslənib.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Azərbaycanın Milli Qəhrəmanı Əsgər Əliyevin anım mərasimi keçirilib

"Vətən, ana torpaq ugrunda şəhid olanlar, doğma xalqına sədaqət nümunəsi göstərənlər heç vaxt unudulmur. Onların xatirəsi qədirbilən xalqımız tərəfindən xatırlanaraq daim ürəklərdə yaşayır".



Bu fikirlər Azərbaycanın Milli Qəhrəmanı Əsgər Ələkbər oğlu Əliyevin anım günü ilə əlaqədar onun adını daşıyan Lənkəran Şəhər Mədəniyyət və İstirahət Parkında keçirilən tədbirdə səsləndirilib. Milli Qəhrəmanın ailə üzvlərinin, Lənkəran Şəhər İcra Hakimiyyəti, hüquq-mühafizə orqanları, müharibə və əmək veteranları və ictimaiyyətin nümayəndələrinin, məktəblilərin, hərbçilərin iştirak etdikləri mərasimdə çıxış edənlər Milli Qəhrəmanın qısa, lakin şərəfli ömür yoluna bir daha işıq salaraq, onun xatirəsinə bəslənilən hörmət və diqqətdən danışıblar.

Tədbirdə çıxış edən Milli Qəhrəmanın atası Ələkbər Əliyev övladının xatirəsinə bəslənilən ehtirama görə qədirbilən Azərbaycan xalqına ailəsi adından minnətdarlığını bildirib.

Qeyd edək ki, Əsgər Əliyev 1974-cü il noyabrın 8-də Lənkəranin Ləj kəndində anadan olub. 1982-1992-ci illərdə Ləj kənd və Haftonu qəsəbə orta məktəblərində təhsil alib. Sonra Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinin Tank-artilleriya fakültəsində təhsilini davam etdirib.

1995-ci il martın 17-də Bakıda hakimiyyəti zorla devirmək cəhdi zamanı Əsgər Əliyev 4 yaralını xilas edərkən aldığı ikinci güllə yarasından dünyasını dəyişib. Doğulduğu kəndin qəbiristanlığında dəfn olunub.

Prezidentin 4 aprel 1995-ci il tarixli sərəncamı ilə Əsgər Əliyev ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

***Ağaddin BABAYEV,***
***Lənkəran***

# Görkəmli şəxsiyyətlər Novruzun ilkin qaynaqları və tarixi haqqında

Novruz bayramı ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bu baxımdan Ç.Daiminin "Novruz mərasiminin mifoloji və tarixi qaynaqları" yazısında da xeyli məlumatlar var. Belə ki, "İslam ensiklopediyası"nın məlumatına görə, Novruz Əhəmənilər (e.ə.558-331) zamanından bayram edilən və şəmsi (Günəş) təqviminin birinci günü (Rumi 9 mart, miladi 21 mart) olaraq qəbul edilən bayramdır.

M.Kaşqari "Divani-lüğət-it türk" əsərində (XI yüzillik) türklərin yüz illər boyu istifadə etdikləri 21 mart başlanğıcının, on iki heyvan təqviminə istinadən Novruz və yeni il fəsillərinin təsnifini vermişdir: "Türklər ili dörd fəslə bölərək onlara ad verirlər. İlin başlanıb bitməsi bu fəsillərdən bilinir. Yeni gün - Novruzdan sonra ilk bahara "Oğlaq ayı", sonra da "Uluq oğlaq" ayı deyirlər.

Ş.Saminin "Qamusi-türki"ndə Novruz belə tanıdılır: "Yeni gün əski İran təqvimində, təqvimi-cəlalidə (yəni Ö.Xəyyamın təqvimində) ilbaşı və ilin bahar xəbərçisi olan gün olub, Rumi təqvimlə martın doqquzuna (miladi 21 mart) təsadüf edər".

Qiyasi "Lüğət"ində Novruz bayramı ilə bağlı deyilir: "Novruz fərvərdin ayının birinci günüdür ki, bu gündə martın 3-də Günəş Qoç bürcünə daxil olur". Amma bütün deyilənlərdə son olaraq bu qənaət önə çəkilir ki, Novruz bayramı baharın gəlişi, bununla torpağın canlanması, yazın ilk gününün qarşılanması bayramıdır. Yazın ilk günü isə Günəşin zahiri hərəkəti əsasında yaradılmış təqvimə əsaslanır.

Günəş təqvim ilinin bir qayda olaraq mart ayının 20-22-dən (fevral ayı ilə əlaqədar ilin uzun, qısalığından asılı olaraq) başlanmasının isə elmi bazası mütləqdir. Bu, bilavasitə "...dəqiq astronomik hadisəyə - Günəşin dünyanın Cənub yarımkürəsindən Şimal yarımkürəsinə keçməsinə, gecə-gündüzün bərabərləşməsinə və yerin Şimal yarımkürəsində astronomik baharın girməsinə uyğun gəlir".

Bu cəhət Azərbaycan şairlərinin əsərlərində də bu və ya digər dərəcədə öz əksini tapmışdır. Böyük şair M.Füzuli gecə-gündüzün bərabərliyi ilə yazın başlanmasını, bununla da Novruz bayramının yetişdiyini poetik şəkildə belə ifadə etmişdir:

*Vəslin mənə Novruz gecəsi oldu müyəssər,*
*Sanki o gecə gündüz ilə oldu bərabər.*

Bu məsələ Abbas Səhhətin dediklərində daha dəqiqdir:

*O gün ki fəsli yaz olar,*
*Gecə, gündüz taraz olar.*

Azərbaycanın xalq şairi Səməd Vurğun poemasında yazıb ki:

Axır çərşənbədir... İl tamam olur,
Bu il kənd içində danışır hamı -
At üstə gəlmişdir Novruz bayramı -
Qulunlu at üstə... Bu bir muraddır.
Qocalar deyir ki, bolluq keçəcək,
Torpaq su yerinə şərbət içəcək,
Odur ki, hamının ürəyi şaddır,
Hamının arzusu, ümidi gülür,
Üzündən, gözündən nurlar tökülür.

Böyük Azərbaycan şairi M.Şəhriyarın "Heydərbabaya salam" əsərində də Novruz öz poetik ifadəsini tapmışdır:

Bayram olub, qızıl palçıx əzərlər,
Naxış vurub otaqları bəzərlər,
Taxçalarda düzmələri düzərlər,
Qız-gəlinin fındıqçası, hənası,
Həvəslənər anası, qayınanası.

Y.V.Çəmənzəminlinin "İki od arasında" romanında Novruz bütün incəliyi ilə təsvir olunmuşdur. "Qazı il təhvilinə beş dəqiqə qaldığını elan etdi: Hamı özünü şad göstərməyə çalışdı. Xalq adətincə, yeni il hansı bir əhval-ruhiyyə ilə qarşılansaydı, guya eyni əhval-ruhiyyə ilin sonuna qədər davam edərdi. Odur ki, üzlər gülümsəyir, qəmi, dərdi unutmağa çalışırdılar, gözlər süfrəyə, bolluğa və gül-çiçəyə dikilirdi... Bir-iki dəqiqə davam edən dərin sükutu top atəşləri pozdu: il dəyişilirdi".

Novruz bayramı hər hansı dini görüşə, ideoloji istəklərə əyilməyən, xalqımızın böyük ehtiramla qeyd etdiyi təsərrüfat məzmunlu yaz bayramıdır. Bu bayram Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır.

***"Azərbaycan"***













Günay Bank

Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edir, hər bir ailəyə səadət, sevinc dolu günlər arzulayır!








23 Mart Ümumdünya Meteorologiya Günüdür

# Bəşəriyyəti düşündürən qlobal problem

Birləşmiş Millətlər Təşkilatının 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində "Ətraf mühitin mühafizəsi və inkişafı" adı altında keçirdiyi beynəlxalq konfransda hər il martın 22-nin Ümumdünya Su Günü kimi qeyd olunması qərara alınmış və bu tarix 1993-cü ildən keçirilməyə başlamışdır. Bu günün qeyd olunması son dövrlərdə suların kəmiyyət və keyfiyyət göstəricilərində baş verən dəyişmələrlə bağlı insanların suya olan tələbatının ödənilməsində yaranan problemlərin ictimailəşdirilməsi və bunu bəşəriyyətin diqqətinə çatdırmaq məqsədini daşıyır.

Məlumdur ki, Yerdə şirin su ehtiyatı cəmi 2,5 faiz təşkil edir ki, bunun da 70 faizi istifadəsi çətin olan əlçatmaz buzlaqlardadır. Bir tərəfdən elmi-texniki tərəqqi, əhali artımı, digər tərəfdən suların kəmiyyət və keyfiyyət göstəricilərində olan neqativ dəyişmələr bu gün və gələcək üçün dünya əhalisinin su təminatı problemlərini həmişə diqqətdə saxlamağı tələb edir.

Hər il martın 23-də qeyd olunan Ümumdünya Meteorologiya Gününün keçirilmə tarixi isə daha qədimdir. Meteorologiya təşkilatı dünyada Qırmızı Xaç Cəmiyyətindən sonra yaranan ikinci beynəlxalq təşkilat hesab olunur. Belə ki, ilk dəfə olaraq 1873-cü ildə Vyana şəhərində Beynəlxalq Meteorologiya Təşkilatı yaradılır. 1947-ci ildə BMT-nin qəbul etdiyi konvensiyanın qərarı 1950-ci ildə qüvvəyə minir və bununla hər il martın 23-də Ümumdünya Meteorologiya Günü qeyd olunmağa başlayır. 1951-ci ildən isə BMT-nin xüsusi agentliyi kimi təsis edilir və hazırda BMT-nin ən mötəbər təşkilatlarından hesab olunur. Təşkilat bu gün dünyanı əhatə dairəsi baxımından 6 regiona bölməklə çoxsaylı proqramlar həyata keçirir.

Azərbaycan Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə müstəqil ölkə kimi 1993-cü ilin sentyabrından bu mötəbər təşkilatın üzvlüyünə qəbul edilmiş və hazırda öz beynəlxalq öhdəliklərini uğurla yerinə yetirir. Yeri gəlmişkən qeyd edək ki, istər 22 Mart Ümumdünya Su Gününün, istər 23 Mart Ümumdünya Meteorologiya Gününün Novruz bayramı günlərinə təsadüf etməsinə baxmayaraq, bir çox Şərq xalqları həmin günləri bayram ərəfəsində "çərşənbə"lər kimi qeyd edir.

Dünya üzrə hidrometeorologiya sahəsində ilk müşahidələrin aparılması eramızdan əvvəllərə təsadüf edir. Qədim mədəniyyətlərin izlərinə məhz iri çay hövzələrində rast gəlinir ki, buna Nil çayı ətrafında inkişaf edən Misir, Dəclə-Fərat çayları ətrafında inkişaf edən Şumer, Hind-Qanq çayı vadilərində inkişaf edən Xarrap mədəniyyətlərini misal göstərmək olar. Çin mədəniyyəti isə nəhəng Xuanxe çayı vadisində inkişaf etmişdir. Həmin mədəniyyətlər özlərini daşqınlardan qorumaq, su ilə təmin etmək və s. məqsədlər üçün çaylar üzərində sadə müşahidələr aparır, kanallar çəkirdilər. Buna eramızdan əvvəl 3500-3000-ci illərdə Nil çayı üzərində aparılan səviyyə müşahidələrini, onların nəticəsində tapılmış çaydan çəkilən kanal və bənd qalıqlarını misal göstərmək olar.

Meteorologiya sahəsində də xidmətin tarixi eramızdan əvvəllə gedib çıxır və təsadüfi deyil ki, Aristotel e.ə. IV- III əsrdə öz traktlarından birini meteorologiyaya həsr etmiş və ilk meteorologiya kitabını yazmışdır. Dünyada ilk meteoroloji stansiya 1654-cü ildə İtaliyada təşkil olunmuş və bu, dünyada meteoroloji müşahidə şəbəkələrinin əsasını qoymuşdur.

Tarix boyu insanların ən çox ehtiyac duyduğu və istifadə etdiyi məlumatlar içərisində hidrometeoroloji məlumatlar və hidrometeoroloji proqnozlar xüsusi yer tutmuşdur. Bu gün əhalinin və ayrı-ayrı ölkələrin iqtisadiyyatının elə bir sahəsi yoxdur ki, onun gündəlik hidrometeoroloji proqnozlara, xəbərdarlıqlara və hidrometeoroloji məlumatlara ehtiyacı olmasın. Planetimizdə əhali artımı (əgər nəzərə alsaq ki, Yer kürəsinin əhalisi 1850-ci illərdə 1 milyard təşkil edirdisə, hazırda bu rəqəm 7 milyardan çoxdur), şirin su ehtiyatlarının çirklənməsi və azalması, qlobal və regional miqyasda iqlim dəyişmələri, hidrometeoroloji proseslərlə bağlı baş verən təbii fəlakətlərin artması ayrı-ayrı regionların iqtisadiyyatına, insanların həyat və məişət tərzinə və bütövlükdə dünya iqtisadiyyatına özünün mənfi təsirini göstərməkdədir.

Hidrometeoroloji proseslərin öyrənilməsi və proqnoz edilməsi bu sahədə aparılan elmi tədqiqat işlərinin əsasını təşkil etməklə sivilizasiyanın bütün inkişaf mərhələlərində həmişə zərurət kimi dünya alimlərinin və ayrı-ayrı təşkilatların diqqət mərkəzində olmuşdur. Çünki bəşəriyyətin bu günü və gələcəyi, onun iqtisadi uğurları məhz hidrometeoroloji şəraitdən, bu şəraitə nəzarətdən və onu yaradan amillərin kompleks tədqiqindən çox asılıdır. ÜMT-nin yalnız bir faktını demək kifayətdir ki, hidrometeoroloji xidmət sahələrinə çəkilən dövlət xərclərinin dünya üzrə orta nisbət göstəricisi 1:8-dir (yəni bu sahəyə qoyulan hər bir dollar 8 dollar ekvivalentində özünü doğruldur). Ayrı-ayrı dövlətlərdə müxtəlif sektorlarda isə bu nisbət bəzən daha da artır (1:15-ə çatır). Bununla yanaşı, müasir iqlim dəyişmələrinin təsirinin artdığı bir dövrdə ABŞ, Yaponiya, Çin, Avstraliya və s. bu kimi dövlətlərin öz büdcələrindən hidrometeoroloji xidmət sahələrinə qoyulan xərcləri ilbəil artırmalarına baxmayaraq, həmin ölkələrdə orta nisbət göstəricisi 1:10-a çatır. Ekspertlərin hesablamalarına görə, bütün dünya üzrə hidrometeoroloji xidmət sahələrinə qoyulan orta xərc 4 milyard, bu xidmət sahələrindən iqtisadi effekt isə 20-40 milyard dollar təşkil edir.

Hazırda dünyada bəşəriyyət üçün iki təbii problem var. Onun biri - su, ikincisi - atmosferdə baş verən iqlim dəyişmələridir. XXI əsrdə su problemi ən aktual elmi-texniki problemlərdən olmaqla, dövlətlərarası siyasi-iqtisadi münasibətlərin əsasına çevrilir. Suyun və havanın təbii sərhədləri olmadığından burada regional və beynəlxalq əməkdaşlıq çox vacibdir. Bu gün planetin hər 3 sakinindən biri su çatışmazlığını hiss edir. Əgər bu sahədə ciddi dönüş yaradılmasa, ekspertlərin hesablamalarına görə, 2025-2030-cu illərdə Yer kürəsi əhalisinin hər 3 nəfərindən 2-si su çatışmazlığı ilə üzləşə bilər. Hazırda dünya əhalisinin 40 faizinin yaşadığı 80-dək ölkədə ciddi su çatışmazlığı hiss olunur ki, bu da onların sosial-iqtisadi inkişafına təsir göstərir. Təəssüf ki, Azərbaycan da müasir tələb və təminat baxımından su ehtiyatları az olan ölkələr sırasına daxildir.



Son dövrlər planetar miqyasda davam edən iqlim dəyişmələri hidrometeoroloji şəraitdə anomal proseslərin dinamikasını artırmaqla müxtəlif növ təbii fəlakətlərin baş verməsinə səbəb olur. Qlobal istiləşmə fauna və floraya, ümumiyyətlə, biomüxtəlifliyə güclü təsir göstərir. Keçən əsrin 60-cı illəri ilə müqayisədə şimal yarımkürəsində istiləşmə nəticəsində vegetasiya dövrü 11-15 gün artmışdır. Son 50 ildə dəniz və okean buz örtüyünün həcmi 10-15 faizə qədər, davamiyyəti 15-20 günə, qalınlığı isə 40 faizə qədər azalmışdır. Eyni zamanda quru ərazilərdə də daimi buzlaq və qar örtük sahələrinin azalması və qar xəttinin daha yüksəkliklərə qalxması baş verir. Bütün bunlar son 20 ildə hidrometeoroloji proseslərlə bağlı baş verən təbii fəlakətlərin saynı 2 dəfədən çox artırmışdır. ÜMT-nin məlumatlarına görə, dünyada baş verən təbii fəlakətlərin 85 faizə qədəri məhz hidrometeoroloji proseslərlə bağlıdır. Məsələn, Avropa, Asiya, Avstraliya, Braziliyada son 10 ildə görünməmiş quraqlıqlar, eyni zamanda Atlantik okeanın Mərkəzi Amerika sahillərində baş verən qasırğalar, eləcə də digər regionlarda olan təbii fəlakətlər, misli görünməmiş meşə yanğınlarının artması sosial-iqtisadi dağıntılar yaratmaqla çoxlu sayda insan tələfatına da səbəb olmuşdur.

1970-ci illərdən başlayan müasir qlobal istiləşmənin tamamilə başqa təbiəti mövcuddur. Bu istiləşmə həm antropogen, həm də təbii amillərin qarşılıqlı təsiri nəticəsində baş verir. İqlim modelləri vasitəsilə aparılan tədqiqatlar göstərir ki, qlobal temperaturun parnik qazlarının artması hesabına baş verməsi ilk növbədə qış fəslində və yüksək coğrafi enliklərdə müşahidə olunur. 1970-1980-ci illərdən sonra qısa dövr ərzində orta çoxillk temperaturlarda sürətli artım müşahidə edilmiş (orta çoxillik temperatur artımı 1.20C-ə yaxın olmuş) və bunun ən çox qradiyenti 1995-ci ildən sonraya təsadüf edir.

İqlim dəyişmələri üzrə ÜMT-nin Hökumətlərarası Ekspert Qrupu sədrinin dünya siyasətçiləri üçün hazırlanmış qısa məlumatlarına görə, qlobal istiləşməni təsdiqləyən əsas faktlar havanın və okean sularının temperaturunun artması, okean səviyyəsinin qlobal qalxması və iqlim dəyişmələrinin əsas indikatoru hesab edilən qar və buz örtüklərinin sahələrinin azalmasıdır. Bu ekspert qrupunun hər 5-6 ildənbir dərc etdiyi hesabatlarda iqlimin qlobal istiləşməsi faktı şübhə doğurmur və xüsusi olaraq qeyd olunur ki, müşahidə dövrü ərzində son 22 ildən 20-sində ən isti hava müşahidə edilmişdir. Qlobal temperaturun son 50 ildəki istiləşmə sürəti isə (0.130C /10 il) 100 illik dövrdəki sürətdən 2 dəfə çox olmuşdur.

İqlimin qlobal istiləşməsinin çoxsaylı göstəriciləri də bu faktı bir daha təsdiqləyir. Məsələn, aparılan tədqiqatlar göstərir ki, son 100 ildə dağ buzlaqlarının uzunluğu ABŞ-ın qayalı dağlarında 15,2 m/il, Şpitsbergendə 51,7, Norveçdə 28,7, Avropanın Alp dağlarında 15,6, Mərkəzi Asiyada 9,9, Afrikada 4,8, Yeni Zelandiyada 25,9 m/il azalmış, 1978-1995-ci illərdə Arktikada dəniz buzlarının sahəsi 610000 km2 və ya 5,7 faiz kiçilmişdir. Antarktika yarımadasında olan 9 şelf buzlağından 5-nin sahəsi isə sürətlə azalmaqdadır. Son illər dünya okeanında, xüsusilə Sakit və Atlantik okeanlarının tropik və subtropik enliklərində səth sularının temperaturu artmışdır. Bu isə qlobal istiləşmə və onun təsirindən baş verən qlobal iqlim dəyişmələrinin əyani göstəricisidir.

Dünya alimlərini narahat edən məsələlərdən biri də temperaturun artması ilə dünya okeanının səviyyəsinin yüksəlməsi və Şimal Buzlu okeanın, Antarktida və Qrelandiya kimi nəhəng materik buzlaqlarının əriməsi, onların morfoloji göstəricilərinin dəyişməsidir. Hesablamalara görə, dünya okeanının ən çox ehtimal olunan səviyyə artımı 2030-cu ildə 14-24 sm arasında ola bilər.

2015-ci ildə Parisdə, 2021-ci ildə Qlazkoda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası xətti ilə keçirilən konfranslarda dünya alimləri, beynəlxalq təşkilatların nümayəndələri ilə yanaşı, əksər dövlətlərin rəhbərləri də iştirak etmişlər. Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi Paris konfransının əsas məqsədi planetdə orta çoxillik temperatur artımını 20C-dən aşağı səviyyədə saxlamaq üçün beynəlxalq müqavilənin bağlanması idi. Geniş müzakirələrdən sonra konfransın əsas uğuru sayılan belə bir müqavilənin imzalanmasına qərar verildi və bu müqavilə 2016-cı il aprelin 22-də BMT-nin iqamətgahında imzalandı.

Azərbaycan ərazisinin iqlimi də qlobal iqlim sisteminin tərkib hissəsidir və bu sistemdə baş verən proseslər müxtəlif intensivliklə və müəyyən zaman kəsiyində ölkənin iqlim şəraitinə təsir göstərir. Deməli, iqlim dəyişmələrinin tədqiqi, onun iqtisadiyyatın müxtəlif sahələrinə təsirinin öyrənilməsi və iqtisadi-təsərrüfat sisteminin adaptasiya imkanlarının araşdırılması Azərbaycan ərazisi və onun iqtisadiyyatı üçün də vacib bir problemə çevrilmişdir. Bunu hazırda qlobal iqlim dəyişmələrinin regional təsirləri timsalında ölkəmizin hidrometeoroloji şəraitində baş verən dəyişmələrdən, bu dəyişmələrin təsirindən yaranan təbii fəlakətlərin güclü qasırğa və küləklərin, quraqlığın, ekstremal temperaturların, meşə yanğınlarının, dolu hadisələrinin, sel və daşqınların təkrarlanmalarının artmasında müşahidə edə bilirik. Son zamanlar ölkə çaylarında, xüsusən Kür və Arazda illik axımın, ümumən su ehtiyatlarının azalması, birbaşa qlobal iqlim dəyişmələri onun regional təsirləri ilə bağlıdır.

***Rza MAHMUDOV,***
***AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun şöbə müdiri, professor***




# Korsika adası müstəqillik tələb edir

## Fransada etiraz aksiyaları və iğtişaşlar səngimir

Fransanın Korsika adasında bir həftədən artıqdır ki, etiraz aksiyaları və iğtişaşlar davam edir. Korsikanın müstəqillik tərəfdarları Kortda, Ajaççoda və Bastiyada zorakılığın baş verməsinə səbəb olan çoxsaylı nümayişlər təşkil ediblər. Səbəb adanın müstəqillik tələb etməsidir. Adaya yollanan Fransanın daxili işlər naziri Jerald Darmanen məsələni müzakirə etməyə hazır olduqlarını deyib. Fransa Prezidenti Emmanuel Makron isə seçkiqabağı proqramını təqdim edərkən bildirib ki, Korsikanın statusu Konstitusiyada əks olunacaq.






### Millətçilərin mübarizəsi nəticə verəcəkmi?

Korsikada iğtişaşlar Arl şəhərinin həbsxanasında 61 yaşlı millətçi İvan Kolonna vəhşicəsinə döyüldükdən sonra başlayıb. O, Fransanın adadakı nümayəndəsi, prefekt Klod Erinyakın qətlinə görə ömürlük həbs cəzası alıb. 1998-ci il fevralın 6-da o, Korsika milli azadlıq cəbhəsinin (FLNC) digər üzvlərinin köməyi ilə Ajaççodakı Kolonna-d'Ornano küçəsində dövlət məmurunu güllələyib. Terrorçu hadisə yerindən qaçaraq bir neçə il gizlənib, lakin 2003-cü ildə tutulub və ömürlük həbsxanaya göndərilib.

Həbsxanada olarkən İvan Kolonna evlənib və uşağı dünyaya gəlib. Millətçi dəfələrlə azadlığa buraxılmaq və ya Korsikaya köçürülmək barədə ərizə verib. Lakin martın 2-də terrorçu başqa bir məhbus - 36 yaşlı Fransa vətəndaşı və Kamerun əsilli Frank Elonq Abenin hücumuna məruz qalıb. Qəribədir ki, Məhəmməd peyğəmbəri təhqir edən millətçi-terrorçu İvan Kolonnanın müsəlman məhbus tərəfindən döyülməsi faktı da sonradan terror aktı kimi tanınıb.

Ağır vəziyyətdə olan İvan Kolonna Arldakı hospitala gətirilib, sonra Marseldəki xəstəxanaya aparılıb və o zamandan bəri həyatla ölüm arasındadır.

Fransa həbsxanasında baş vermiş hadisə barədə xəbər korsikalıların hiddətinə səbəb olub. Kortda, Ajaççoda, Bastiyada və Kalvidə iğtişaşlar başlanıb və bir çox hallarda polislə sərt toqquşmalara çevrilib. Etirazçılar Bastiyada prefekturanı ələ keçirməyə cəhd göstəriblər, nəticədə 44 polis və 23 nümayişçi yaralanıb.

2017-ci ildən etibarən Fransa təsirinin maksimum məhdudlaşdırılmasının tərəfdarı olan millətçilərin nəzarətinə keçən adanın sakinlərini fransız həbsxanalarında saxlanılan İvan Kolonna və onun iki silahdaşı- Pyer Alessandri və Alen Ferrandinin taleyi ciddi narahat edir. Milli Assambleyada bir qrup korsikalı deputat dəfələrlə bu üç məhkumun vətənə köçürülməsini xahiş edib, lakin onlara Borqoda yerli həbsxananın belə təhlükəli cinayətkarların saxlanması üçün uyğunlaşdırılmaması bəhanəsi ilə imtina olunub.

Hücumdan və baş verən etirazlardan sonra Fransanın Baş naziri Jan Kasteks terrorçuların üzərindən Korsikaya köçürülmələrinə mane olan “xüsusi mühafizə” statusunu ləğv etməyə məcbur olub.

İvan Kolonna sağlamlıq vəziyyətinə görə şərti azadetmə hüququnu alıb. Ancaq bu barədə hələ yalnız millətçinin yaxınları bilir, özü isə koma vəziyyətindədir.

Daxili işlər naziri Jerald Darmanen etiraf edib ki, dövlət onun müdafiəsi altında olan insanlara, o cümlədən həbs yerlərində cəza çəkənlərə görə məsuliyyət daşıyır. Adanın gənclərinin iştirak etdiyi şiddətli etirazlarla qarşılaşan nazir təcili olaraq bütün seçilmiş vəzifəli şəxslər və fəal qüvvələrlə müzakirələr aparmaq üçün Korsikaya uçub. Bir gün əvvəl o, ciddi şəkildə Korsikanın muxtariyyət ala biləcəyini söyləyib.

Fransada bir sıra “dəniz əraziləri” bu cür hüquqlara malikdir. Məsələn, Yeni Kaledoniya 1998-ci ildən Fransa dövləti çərçivəsində xüsusi ərazi statusuna malikdir. Metropoliya isə özündə, həyati əhəmiyyətli sahələrdə olsa da, minimum səlahiyyət saxlayıb: müdafiə, daxili təhlükəsizlik, ədliyyə və pul tədavülü.

### Emmanuel Makron fikrini dəyişib

Danışıqların tərəfdaşları korsikalı siyasətçilər - ada üçün tam müstəqillik istəyən Jan-Gi Talamoni və Korsikanın muxtariyyətinin tərəfdarı olan Jil Simeonidir. Onların tələbləri arasında fransız dili ilə yanaşı, adada korsikan dilini ikinci dövlət dili etmək, ev və torpaq mülkiyyətində imtiyazı olan ada sakinlərinin statusunu müəyyənləşdirmək və işə qəbul zamanı onlara üstünlük vermək məsələləri var.

2014-cü ildə korsikalı millətçilər silahlı mübarizədən imtina etdikdən sonra onlar yalnız radikalları deyil, həm də mötədilləri öz tərəfinə çəkdilər. Ancaq indi Korsika milli azadlıq cəbhəsi (FLNC) hərbi taktikaya qayıtmaq ehtimalı barədə danışır.

Hökumətin ən yaxın vəzifəsi aydındır. Onlar danışıqlara başlamalıdırlar, amma prezident seçkisinədək danışıqları bitirməməlidirlər. Beləliklə, ada sakinləri onların gələcəyinin hazırkı prezidentin əlində olduğunu hiss edəcəklər. Hazırkı dövlət başçısı Emmanuel Makron əvvəllər Korsikanın muxtariyyətinə qarşı qəti fikir bildirsə də, indi fikrini dəyişib - həm son hadisələrin təsiri altında, həm də yeni seçilmə planlarının xeyrinə...

Bu günlərdə özünün seçkiqabağı proqramını təqdim edərkən Fransa lideri deyib: “Korsikanın statusu Fransa Konstitusiyasında əks olunacaq”. Makron həm də əmin edib ki, islahatlarda adanın respublikada vəziyyətinin spesifikliyi öz əksini tapacaq.

***Rizvan HİLALOĞLU,***
***“Azərbaycan”***

# Novruz bayramının ilk günündə ölkə ərazisində havanın arabir yağıntılı olacağı proqnozlaşdırılır

Azərbaycanda martın 20-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin arabir yağıntılı olacağı gözlənilir. Abşeron yarımadasının bəzi ərazilərində yağışın sulu qarla qarışıq yağma ehtimalı var. Şimal-qərb küləyi əsəcək, yarımadanın bəzi yerlərində arabir güclənəcək. Havanın temperaturunun gecə və gündüz 2-5° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi normadan yüksək - 771 millimetr civə sütunu, nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı proqnozlaşdırılır. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 5-9° isti, dağlarda gecə 5-10° şaxta, yüksək dağlıq ərazilərdə 15°-dək şaxta, gündüz 0-5° şaxta olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında arabir qar yağacağı, axşam tədricən kəsiləcəyi gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-8° şaxta, gündüz 3-8° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında arabir qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 0-5° şaxta olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında arabir qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10° şaxta, dağlarda 15°-dək şaxta, gündüz 0-5° şaxta olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 4-7° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-6° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti, dağlarda gecə 5-10° şaxta, yüksək dağlıq ərazilərdə 15°-dək şaxta, gündüz 0-5° şaxta olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 5-9° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında havanın arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı proqnozlaşdırılır. Gecə və səhər saatlarında duman olacaq. Şimal-şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-4°, gündüz 5-8° isti, dağlarda gecə 3-5°, gündüz 0-3° şaxta olacağı gözlənilir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5685
Sifariş 747
Qiyməti 40 qəpik